AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

13 NOYABR 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 253 (6286) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Prezident İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib







**Noyabrın 12-də Bakıda Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışı olub.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılışda iştirak ediblər.

Dövlətimizin başçısı inzibati binanın rəmzi açılışını bildirən lenti kəsdi.

Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi - şöbə müdiri Fuad Ələsgərov və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev binada yaradılan şərait barədə məlumat verdilər.

(davamı 2-ci səhifədə)

## Prezident İlham Əliyev Ümumdünya Antidopinq Agentliyinin prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının və İcraiyyə Komitəsinin iclaslarının Azərbaycanda keçirilməsindən məmnunluğunu bildirdi və bu tədbirlərdə dünyanın müxtəlif ölkələrindən xeyli sayda qonağın iştirak etməsinin önəmini qeyd etdi. Prezident İlham Əliyev tədbir iştirakçılarının Azərbaycana gəlişinin ölkəmizi daha da yaxından tanıması və uğurlu əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Ölkəmizə səfərinin onun üçün çox xoş olduğunu bildirən Ümumdünya Antidopinq Agentliyinin prezidenti Kreyq Ridi Azərbaycan tərəfinin bu tədbirlərin təşkilinə böyük dəstək göstərdiyinə görə təşəkkürünü ifadə etdi. O, tədbirlərdə müxtəlif ölkələrin nümayəndələrinin və ictimai xadimlərin iştirakının əhəmiyyətini vurğuladı.

Kreyq Ridi azərbaycanlı həmkarları ilə dopinq əleyhinə mübarizə sahəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi apardıqlarını deyərək, Azərbaycanda Milli Antidopinq Agentliyinin yaradılmasını dopinq əleyhinə mübarizə işində irəliyə doğru çox mühüm addım kimi dəyərləndirdi. O qeyd etdi ki, Azərbaycanın mühüm idman dövləti və güclü antidopinq təşkilatına malik olduğu nəzərə alınaraq bütün bu işlər mühüm əhəmiyyət kəsb edir.

Dövlətimizin başçısı Azərbaycan Milli Antidopinq Agentliyinin yaradılması işində Kreyq Ridinin rəhbərlik etdiyi Ümumdünya Antidopinq Agentliyinin dəstəyinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Azərbaycanda iki il bundan öncə belə bir qurumun yaradılmasının idmanın, Olimpiya hərəkatının inkişafında mühüm addım olduğunu vurğuladı və eyni zamanda, bunu idman sahəsində beynəlxalq əməkdaşlığa töhfə kimi dəyərləndirdi. Dövlətimizin başçısı ölkəmizdə Milli Antidopinq Agentliyinin beynəlxalq standartlara uyğun şəkildə fəaliyyət göstərdiyini və tam akkreditə olunduğunu dedi. Azərbaycanda idmanın inkişafına böyük önəm verildiyini deyən Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə keçirilən mühüm beynəlxalq idman yarışları - Avropa Oyunları, İslam Həmrəyliyi Oyunları və digər tədbirlər və eləcə də keçirilməsi nəzərdə tutulan 15-ci Avropa Olimpiya Gənclər Festivalı Azərbaycanın bu sahədə əməkdaşlıq siyasətini və imkanlarını nümayiş etdirir. Dövlətimizin başçısı ölkəmizin idman sahəsində böyük nailiyyətlər əldə etməsini, o cümlədən idmançılarımızın Rio Olimpiadasında 18 medal qazanaraq medalların sayına görə 14-cü yeri tutduğunu vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın antidopinq məsələləri ilə bağlı Ümumdünya Antidopinq Agentliyi ilə bundan sonra da sıx əməkdaşlıq edəcəyinə əminliyini ifadə etdi.

**AZƏRTAC**

## Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılmasına verdikləri töhfəyə və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Abdullayev Akif Hacı oğlu
Feyzullayev Tural Hicrət oğlu
İsayev İdris Balakişi oğlu
Qasımlı Vüsal Əfras oğlu
Məmmədov Sahib Əli oğlu
Lətifov Ragim Əhəd oğlu
Rüstəmli Elsevər Mövlud oğlu
Vəliyev İlkin Etibar oğlu
Vəliyev Sərvər Yaqub oğlu

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Qədirov Ayaz Tofiq oğlu
Məmmədova Fərəh Fərahim qızı
Sadıqov Rafiq Fazil oğlu
Şahbazov Famil Fariz oğlu
Şirinov Şamil Vidadi oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 noyabr 2018-ci il.**

## A.S.Məmmədovun Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Adış Sakit oğlu Məmmədov Azərbaycan Respublikasının İsveç Krallığında, eyni zamanda Norveç Krallığında və Finlandiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 noyabr 2018-ci il.**

## Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi üçün 3,5 milyon manat ayrılıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi barədə Sərəncam imzalayıb.**

AZƏRTAC xəbər verir ki, Sərəncama əsasən, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan xərclərdən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin fəaliyyətinin təmin edilməsi üçün 3,5 milyon manat vəsait ayrılıb.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Bakıda Elektron Hökumətin İnkişafı Mərkəzinin inzibati binasının açılışında iştirak edib

**(əvvəli 1-ci səhifədə)**

Qeyd edək ki, Nərimanov rayonu, Atatürk prospekti 89 ünvanında yerləşən beşmərtəbəli inzibati binada "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxsin fəaliyyətinin yüksək səviyyədə təşkili üçün bütün şərait yaradılıb. Burada startaplara və innovasiyalara dəstək ekosisteminin elementləri olan "İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzi, həmçinin İT savadlılığının artırılması məqsədilə İT Təlim-Tədris Mərkəzi də fəaliyyət göstərəcək.

"İNNOLAND" İnkubasiya və Akselerasiya Mərkəzinin fəaliyyəti ilə tanış olan Prezident İlham Əliyevə məlumat verildi ki, "İNNOLAND" Azərbaycanda, eyni zamanda, onun hüdudlarından kənarda özəl sektorun inkişaf etdirilməsi, innovasiyanın təşviqi və startap hərəkatının genişləndirilməsi üçün yaradılan inkubasiya, akselerasiya və araşdırma mərkəzidir. İNNOLAND Kovörkinq, İnkubasiya, Akselerasiya və İT Təlim-Tədris Mərkəzindən ibarətdir. Buradakı "Kovörkinq" mərkəzi startaplar, proqramçılar, innovasiyalar sahəsində tək və ya kiçik komanda ilə işləyən şəxslər üçün sərfəli və bir çox imkanları özündə birləşdirən iş yeridir. "İNNOLAND"də fəaliyyət göstərəcək "Kovörkinq" mərkəzi həftənin 7 günü 24 saat giriş imkanına, yüksək sürətli internetə, vahid məlumat köşkünə, mentor dəstəyinə malikdir.

İT Təlim-Tədris Mərkəzi isə gənclərə proqramlaşdırma və informasiya texnologiyaları üzrə biliklərin öyrədildiyi, kodlaşdırma bacarıqlarının verildiyi məkandır. Mərkəzdə süni intellekt, robotlaşdırma və onları dəstəkləyən proqramlaşdırma dillərinə üstünlük verilir. Dərslər "bootcamp" formatında üç ay ərzində hər gün keçirilir. İnkubasiya dövründə startaplara ideyalarının formalaşdırılmasına kömək göstərilir. Bu müddətdə əvvəlcədən müəyyənləşdirilmiş istiqamətlər üzrə ildə 4 dəfə ideya müsabiqəsi elan olunur. Müvafiq meyarlara əsasən müsabiqəyə əvvəlcədən müəyyənləşdirilmiş say üzrə ideya qəbul edilir. İnkubasiya dövründə uğurla formalaşmış ideyaların ilkin versiyaları test edilməsi, prototiplərin hazırlanması üçün akselerasiya mərhələsinə keçirilir. Bu mərhələdə komandaya mütəmadi şəkildə mentor dəstəyi göstərilir. Mərkəzdə fəaliyyət göstərən startaplar İnkubasiya və Akselerasiya dövründə "İNNOLAND"in innovasiyalar və İKT sahəsində ümumi fəaliyyətindən də yararlanacaqlar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva burada innovativ layihələrlə də tanış oldular.

Bildirildi ki, "Wattbooster" qurğusu elektrik enerjisinin faydalı iş əmsalını artırır, elektromaqnit sahəsinin hesabına daha çox enerji istehsal edir. Nəticədə elektrik avadanlıqlarının enerji sərfiyyatına qənaət olunur. Hələlik bu qurğu mobil operatorların antennalarının elektrik enerjisinin sərfiyyatının azaldılması üçün nəzərdə tutulub.

"Lia" adlı spinal qurğu onurğa sütununun vəziyyətinə nəzarət edir və insanda düzgün qamət yaradır. Mikrokontroller və iki sensordan ibarət olan, çiyindən asılan "Lia" minimum 3 həftədən sonra heç bir narahatlıq hissi doğurmadan onurğa sütununu düzəltməyə kömək edir. Sensor çiyinlərin vəziyyətini müəyyən edərək duruşun düzgünlüyünü yoxlayır. İstifadəçinin duruşu səhv vəziyyətdə olduğu halda telefonuna bildiriş gəlir və qaməti düzəltmək yada salınır.

"Safee" adlı ixtira yolda təhlükəsiz şəkildə, əsasən axşam vaxtı velosiped sürmək üçün dizayn edilib. Cihaz təhlükəsizlik işarələrini velosiped sürücüsünün bel nahiyəsinə əks etdirir. Nadir cihaz istehsal olunduğu ilk gündən dünya mediasında böyük maraq doğurub. Belə ki, BBC, Mirror, Yahoo və digər media qurumlarında layihə haqqında məqalələr dərc edilib və o, bir neçə qlobal mükafata layiq görülüb. Yaxın gələcəkdə kütləvi istehsalına başlanılacaq bu cihaz üçün bir sıra ölkələrdən yüzlərlə sifariş daxil olub.



"Wetravel" isə turizm şirkətləri üçün ödəmə şəbəkəsidir. Şəbəkə istifadəçisi olan şirkətlər bir-birləri ilə pul mübadiləsini ən aşağı komissiya ilə həyata keçirə bilərlər. Otellər, hostellər, aviaşirkətlər, səyahət agentlikləri və bu qəbildən digər şirkətlər platformanın imkanlarından yararlana bilərlər. "Wetravel" istifadəçilərə səyyah məlumatının, ödənişlərin asanlıqla toplanması, ən aşağı məzənnə ilə beynəlxalq ödənişlər kimi imkan yaradır. Platforma vasitəsilə 80-dən çox ölkəyə minlərlə səfər təşkil edilib.

"Namo Media" onlayn reklam idarəetmə sistemidir. Fox, ESPN kimi böyük xəbər saytlarının reklam idarəetməsi bu sistemlə həyata keçirilir. "Namo Media" 2014-cü ildə Twitter şirkəti tərəfindən 50 milyon dollar dəyərində qiymətləndirilərək alınıb.

Bu startaplar azərbaycanlı təsisçilər tərəfindən hazırlanıb və qlobal bazarı hədəfləyir.

Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya "Elektron hökumət"in yeni inkişaf konsepsiyası barədə də ətraflı məlumat verildi.

Xatırladaq ki, dövlət strukturlarında və dövlət xidmətlərinin həyata keçirilməsində informasiya və kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ həllərin tətbiqi Azərbaycanda dövlət siyasətinin prioritetlərindən biridir. Son illərdə bu sahədə davamlı inkişaf üçün mühüm tədbirlər görülüb. Ölkə üzrə internet şəbəkəsinin qurulması, açıq hökumətin təşviqi internet istifadəçisi sayının artmasına səbəb olub, ictimai əhəmiyyət daşıyan informasiyanın açıqlığı və informasiya əldə etmə azadlığı təmin edilib. Bununla yanaşı, son illər vətəndaşlara şəffaf, operativ və resurslara qənaət etməklə xidmət göstərilməsi üçün dövlət xidmətlərini tam elektronlaşdırmaq, dövlət informasiya ehtiyatlarının analitik təhlilini aparmaq və nəticələrindən dövlət və özəl sektorun istifadəsi imkanlarını yaratmaq əsas hədəfə çevrilib. Bütün bunlara görə dövlət informasiya ehtiyatlarının və sistemlərinin formalaşdırılması, idarə olunması və qarşılıqlı inteqrasiyasının təmin edilməsi sahəsində vahid yanaşmanın və standartların tətbiqi və rəqəmsal hökumətə keçid prosesinin sürətləndirilməsi zərurəti yaranmışdı. Bu işlərin sürətlə həyata keçirilməsi üçün Prezident İlham Əliyev 2018-ci il martın 14-də "Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçidlə bağlı tədbirlər haqqında" Fərman imzalayıb. Bu Fərmanla elektron hökumət sahəsində dövlət siyasətinin və tənzimlənməsinin həyata keçirilməsi məqsədilə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs fəaliyyətə başlayıb.

**AZƏRTAC**







# Slovakiyanın Baş naziri Peter Pelleqrini Azərbaycana rəsmi səfərə gəlib

**Slovakiya Respublikasının Baş naziri Peter Pelleqrini noyabrın 12-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda Slovakiya Baş nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Hərbi orkestrin ifasında Slovakiyanın və Azərbaycanın dövlət himnləri səslənib.




Slovakiyanın Baş naziri Peter Pelleqrinini hava limanında Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və digər rəsmi şəxslər qarşılayıblar.

**AZƏRTAC**

# AMEA ilə Rusiya Dövlət Geoloji Kəşfiyyat Universiteti arasında əməkdaşlıq müqaviləsi imzalanıb

AMEA Rəyasət Heyətində Serqo Orconikidze adına Rusiya Dövlət Geoloji Kəşfiyyat Universitetinin rektoru, professor Vadim Kosyanov və həmin universitetin prorektoru, professor Vaqif Kərimov ilə görüş keçirilib.

Əvvəlcə qonaqlara rəhbərlik etdiyi elm ocağı haqqında məlumat verən AMEA-nın prezidenti, akademik Akif Əlizadə burada dünya elminin prioritet istiqamətlərində araşdırmaların aparıldığını, mühüm nəticələrin əldə edildiyini, nüfuzlu beynəlxalq elmi təşkilatlar ilə əməkdaşlıq əlaqələrinin qurulduğunu diqqətə çatdırıb.

Akademik A.Əlizadə AMEA Yüksək Texnologiyalar Parkından da söz açaraq, qonaqları bu müəssisədə həyata keçirilən pilot layihələrlə yaxından tanış olmağa dəvət edib. O, həmçinin akademiyada geologiya, seysmologiya, hidrogeologiya, neft-kimya, kimya texnologiyaları sahələrində əldə olunmuş nailiyyətlər haqqında məlumat verib.

AMEA rəhbəri M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialında Rusiya Dövlət Geoloji Kəşfiyyat Universiteti ilə birgə Geologiya fakültəsinin yaradılması təklifini də irəli sürüb.



Sonra çıxış edən professor Vadim Kosyanov təmsil etdiyi qurum haqqında məlumat verərək, bu ali məktəbin 1918-ci ildə fəaliyyətə başladığını bildirib. O, universitetin fəaliyyət istiqamətləri, laboratoriyaları, tədris prosesi və burada aparılan araşdırmalardan bəhs edib. Alim AMEA ilə neft və qaz yataqlarının kəşfiyyatı, geologiya və digər müvafiq sahələrdə birgə tədqiqatların, kadr və təcrübə mübadiləsinin aparılmasının vacibliyini vurğulayıb.

V.Kosyanov bildirib ki, rəhbərlik etdiyi ali məktəbdə uzun illərdir ki, peşəkar kadr hazırlığı həyata keçirilir, dünyanın müxtəlif ölkələrindən olan tələbələr burada təhsil alırlar.

Rektor AMEA rəhbərini nümayəndə heyəti ilə birgə universitetin Moskvada keçiriləcək 100 illik yubiley yığıncağına dəvət edib. O, 2019-cu ildə elm və təhsil sahəsi üzrə iki ölkənin birgə sammitinin keçirilməsini təklif edib.

Daha sonra iki qurum arasında əməkdaşlıq haqqında müqavilə imzalanıb. Müqavilədə elm, təhsil və innovasiya sahəsində əlaqələri gücləndirməklə yanaşı, birgə konfrans və simpoziumların təşkili, məqalələrin çap olunması və prioritet elm sahələri üzrə elmi və elmi-texniki problemlərin araşdırılması nəzərdə tutulur.

A.Əlizadə əməkdaşlığa dair imzalanmış sazişin hər iki ölkənin elmi qurumlarının fəaliyyətinə müsbət təsir göstərəcəyinə əminliyini bildirib.

Görüşdə AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyev və Rəyasət Heyəti Aparatının Beynəlxalq Əlaqələr İdarəsinin rəisi, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva iştirak ediblər.

**AMEA İctimaiyyətlə Əlaqələr şöbəsi.**

# Azərbaycan Paris Sülh Forumunda təmsil olunub

**Birinci Dünya müharibəsinin başa çatmasının 100 illiyi münasibətilə Zəfər Tağının yerləşdiyi meydanda keçirilən təntənəli mərasimdə iştirak edən 70 dövlət və hökumət rəhbəri, o cümlədən Rusiya Prezidenti Vladimir Putin, Almaniya Kansleri Angela Merkel, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Paris Sülh Forumuna gəliblər.**

Azərbaycan tədbirdə xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

AZƏRTAC xəbər verir ki, tədbiri Fransa Prezidenti Emmanuel Makron açaraq bildirib ki, bugünkü dünya çox kövrəkdir və məqsədi çoxtərəfliliyi müdafiə etmək olan forum sülhün daha da tərəqqi etməsi üçün hər il keçiriləcək.

Almaniya Kansleri Angela Merkel çıxışında Şarl de Qollun "1918-ci ildə Almaniya məğlub oldu, biz hamımız uduzduq" sözlərini xatırladaraq unilateralizmin və nasionalizmin dağıdıcı nəticələrini vurğulayıb.

BMT-nin baş katibi Antonio Quterreşin çıxışı ilə forum öz işini davam etdirib.

Paris Sülh Forumu sadə ideyaya əsaslanan illik tədbirdir və beynəlxalq problemlərin həlli platforması kimi çıxış edir. Burada dünyanın müxtəlif ölkələrindən 850 müraciət üzrə sülh və təhlükəsizlik, ətraf mühit, inkişaf, yeni texnologiyalar və inklüziv iqtisadiyyat kimi beş istiqamətdə 120 təşəbbüs və layihə ətrafında müzakirələr aparılır. Forum bu tip layihələrə dəstək və potensial tərəfdaşlarla qarşılıqlı fəaliyyət təklif edir. Təqdimatlardan seçilən 10 layihəyə 2019-cu ilin noyabrında keçiriləcək ikinci forumadək xüsusi dəstək veriləcək.

**AZƏRTAC**

# Birinci Dünya müharibəsinin başa çatmasının 100 illiyi münasibətilə Parisdə təntənəli mərasim keçirilib

**Noyabrın 11-də Birinci Dünya müharibəsinin başa çatmasının 100 illiyi münasibətilə Parisdə, Zəfər Tağının yerləşdiyi meydanda təntənəli mərasim keçirilib.**

Mərasimdə 85 ölkənin dövlət və hökumət başçıları, o cümlədən ABŞ Prezidenti Donald Tramp, Rusiya Prezidenti Vladimir Putin, Almaniya Kansleri Angela Merkel, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və digərləri, eləcə də beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, ölkəmiz tədbirdə xarici işlər naziri Elmar Məmmədyarovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

Mərasim iştirakçıları Yelisey Çölləri prospekti ilə hərəkət edərək tədbirin əsas hissəsinin keçirildiyi əraziyə - Zəfər Tağının ətrafına gəliblər.

Fransa Prezidenti Emmanuel Makron fəxri qarovul dəstəsini salamladıqdan sonra hərbi orkestrin ifasında bu ölkənin dövlət himni - "Marselyoza" səsləndirilib.

Sonra Fransa, Britaniya, Çin, ABŞ və Almaniya əsgərlərinin Birinci Dünya müharibəsinin başa çatdığı gün - 1918-ci il noyabrın 11-də yazdıqları xatirələrdən parçalar oxunub.

Fransa Prezidenti Emmanuel Makron tədbirdə çıxış edib.

Mərasimə qatılan dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri "Naməlum əsgər" abidəsini ziyarət ediblər.

Fransa Prezidenti əbədi məşəli alovlandırıb.

Təntənəli mərasim "Naməlum əsgər" abidəsinin üzərinə əklilin qoyulması, müharibə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunması və kilsə zənglərinin çalınması ilə başa çatıb.

**AZƏRTAC**

# BAKI BİZNES UNİVERSİTETİNİN KOORDİNATORLUĞU İLƏ NÖVBƏTİ TƏLİMLƏR

Bakı Biznes Universitetinin koordinatoru olduğu və Avropa Komissiyası tərəfindən maliyyələşdirilmiş "Azərbaycan Universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin Yaradılması və İnkişaf Etdirilməsi" EQAC adlı Erasmus+ layihəsi iştirakçılarının növbəti təlimləri 5-11 noyabr 2018-ci il tarixlərində Litvanın Vilnüs şəhərində keçirilmişdir. İlk görüşlər Litvanın Ali Təhsildə Keyfiyyət Təminatı Mərkəzində və Litvanın tanınmış Mykolas Romeris Universitetində baş tutmuşdur. Növbəti təlimlər isə Litvanın Sosial-Tətbiqi Elmlər Universitetində davam etdirilmişdir. Litvada Ali Təhsildə Keyfiyyət Təminatı sahəsində aparıcı mütəxəssislər tərəfindən həyata keçirilən təlimlərdə 11 Azərbaycan universitetinin 36 nümayəndəsi təmsil olunmuşdur. Təlimlərin məqsədi Azərbaycan universitetlərində Keyfiyyət Təminatı Mərkəzlərinin yaradılması və mərkəzlərin iş prinsiplərinin beynəlxalq standartlara uyğunlaşdırılmasıdır. Bakı Biznes Universitetinin rektorunun rəhbərliyi ilə həyata keçirilən təlimlər 11 noyabr 2018-ci il tarixinə qədər öz fəaliyyətini yüksək səviyyədə davam etdirmişdir.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 23 il keçir

**Hər il noyabrın 12-si Azərbaycanda dövlət bayramı olan Konstitusiya Günü qeyd edilir.**

**AZƏRTAC xəbər verir ki, noyabrın 12-də Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin kollektivi Əsas Qanunun qəbul edilməsinin 23 illiyi münasibətilə Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu, ilk milli Konstitusiyamızın müəllifi ulu öndər Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıb, məzarı önünə gül dəstələri və əklil qoyub.**

**Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül-çiçək dəstələri düzülüb.**

**Həmçinin görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin də xatirələri anılıb, məzarları üzərinə güllər qoyulub.**

**Daha sonra Konstitusiya Məhkəməsində iclas keçirilib.**



Tədbirdə çıxış edən sədr Fərhad Abdullayev əvvəlcə Konstitusiya Məhkəməsinin hakimlərini və Aparatın əməkdaşlarını təbrik edərək bildirib ki, Konstitusiya Günü Azərbaycan xalqı üçün çox əlamətdar gündür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış Konstitusiyanın qəbulu Azərbaycanda vətəndaş cəmiyyətinin bərqərar edilməsi, əhalinin layiqli həyat səviyyəsinin, vətəndaşların hüquq və azadlıqlarının təmin olunması üçün hərtərəfli zəmin yaratdı, ölkəmizin hüquqi, siyasi, iqtisadi və digər sahələrdə inkişafının gələcək istiqamətlərini müəyyənləşdirdi. 1995-ci il noyabrın 12-də yeni Konstitusiyanın qəbul edilməsi xalqımızın tarixən formalaşmış dövlətçilik ənənələrinə uyğun olan və eyni zamanda, ölkəmizdə müasir dünyanın tələblərinə cavab verən demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, plüralizm əsasında siyasi sistemin və hüquq sisteminin inkişafı üçün möhkəm özülün yaradılması baxımından mühüm hadisə oldu.

Diqqətə çatdırılıb ki, Konstitusiya Azərbaycan Respublikasında xalqın dövlət hakimiyyətinin yeganə mənbəyi olduğunu elan edir, öz müqəddəratını sərbəst və müstəqil həll etməyi və öz idarəetmə formasını müəyyən etməyi Azərbaycan xalqının suveren hüququ kimi təsbit edir. 2002-ci il avqustun 24-də, 2009-cu il martın 18-də və 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumlar nəticəsində Konstitusiyanın mətninə əhəmiyyətli əlavələr və dəyişikliklər edilib.

Sədr vurğulayıb ki, referendum yolu ilə Konstitusiyaya edilən əlavə və dəyişikliklərin əsas hissəsi insan hüquq və azadlıqlarının məzmununun genişləndirilməsinə xidmət edir. Bu istiqamətdə həyata keçirilən hüquqi islahatlar insan hüquq və azadlıqlarının daha səmərəli üsul və vasitələrlə müdafiə olunmasını, insan hüquqlarının təminatlarının bütün növlərinin təkcə qanunvericilikdə təsbit olunmasına deyil, həm də praktiki cəhətdən gündəlik həyatda reallaşdırılmasına şərait yaratdı. Konstitusiya islahatları Azərbaycanın hüquq sisteminin inkişaf etmiş dövlətlərin hüquq sisteminə və beynəlxalq hüquq normalarına uyğunlaşdırılması, ölkəmizdə demokratikləşmə proseslərinin daha da genişləndirilməsi məqsədlərinə xidmət edib. Son referendumda əldə edilən nəticələr dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən, ölkəmizin dayanıqlı inkişafına və sosial rifahın təmin olunmasına yönələn siyasətin Azərbaycan xalqı tərəfindən birmənalı dəstəkləndiyini nümayiş etdirdi.

Fərhad Abdullayev bildirib ki, fəaliyyət göstərdiyi illər ərzində Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş bir çox qərarlarda Konstitusiyanın əsasları, onun aliliyi və birbaşa qüvvəsi, respublikamızın tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəaları nəzərə alınmaqla mühüm hüquqi mövqelər formalaşdırılıb. Konstitusiya Məhkəməsi, həmçinin konstitusiya ədalət mühakiməsinin müasir tendensiyalarını davamlı olaraq izləyir və fəaliyyətində tətbiq edir. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sazişlər, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququ və xarici konstitusiya nəzarəti orqanlarının qabaqcıl məhkəmə təcrübəsi öyrənilir və Konstitusiya Məhkəməsinin qərarlarında onlara istinadlar edilir. Bu, həm qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi müvafiq beynəlxalq müqavilələrin tətbiq edilməsinin zəruriliyindən irəli gəlir, həm də Məhkəmənin mövqeyinin daha da zənginləşdirilməsinə və düzgün əsaslandırılmasına xidmət edir.

Sədr qeyd edib ki, Konstitusiya Məhkəməsinin fəaliyyəti ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən demokratikləşmə və quruculuq prosesləri nəticəsində mümkün olub.

Fərhad Abdullayev əminliklə bildirib ki, Konstitusiya Məhkəməsi dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın tərəqqisi, ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu və hüquq sisteminin inkişafı prosesinə, Konstitusiyanın aliliyinin təmin edilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi işinə bundan sonra da töhfələr verməyə çalışacaq və fəaliyyətini müasir tələblərə cavab verən inkişaf xətti ilə davam etdirəcək.

**AZƏRTAC**

# İLK MİLLİ KONSTİTUSİYAMIZ

***Azərbaycanda 1995-ci il noyabr ayının 12-də hüquqi dövlət quruculuğu sahəsində çox mühüm, əlahiddə addım atıldı. Həmin tarixdə ulu öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycanın ilk Milli Konstitusiyası ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Bu Ali Qanun Azərbaycanın siyasi tarixində yeni bir era açmaqla dövlətimizin suverenliyinin, insan hüquqlarının və demokratik dəyərlərin əsas təminatçısına çevrildi.***

Zəngin dövlətçilik ənənələrinə malik olan xalqımız ötən əsrin əvvəllərində, 100 il öncə bütün türk dünyasında və İslam Şərqində ilk demokratik dövlət - Azərbaycan Xalq Cümhuriyyətini yaratmışdır. AXC-nin cəmi 23 aylıq fəaliyyəti dövründə bir çox mütərəqqi qanun və digər hüquqi aktlar qəbul edilsə də, 1920-ci ildə Azərbaycanın bolşeviklər tərəfindən işğalı səbəbindən müstəqil dövlətin əsas qanunu olan Konstitusiyanı yazıb hazırlamağa vaxtı çatmadı. Sonrakı illərdə, yəni Azərbaycanda kommunistlərin üsuli-idarəsi dövründə ölkəmizdə bir neçə dəfə konstitusiya qəbul olunmuşdur. Aydındır ki, partiyanın "həssas rəhbərliyi" altında yazılan bu konstitusiyaların heç biri müstəqil və milli ola bilməzdi.

Nəhayət, 1991-ci ildə Azərbaycan xalqı bütün dünyaya müstəqilliyini elan etdi. Lakin təəssüflə qeyd etmək lazımdır ki, müstəqilliyimizin ilk illərində Azərbaycanın Əsas Qanununun hazırlanması ilə əlaqədar ciddi bir iş görülmədi. Nəticədə dörd il ərzində Azərbaycan faktiki olaraq 1978-ci ildə qəbul olunmuş Konstitusiyaya əsasən fəaliyyət göstərməli oldu.

Yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra, 1993-cü ilin oktyabr ayında ulu öndər yeni Konstitusiyanın hazırlanması barədə Milli Məclis qarşısında məsələ qaldırmış və iki ilə yaxın müddət ərzində bu istiqamətdə böyük həcmli iş aparılmışdır. 1995-ci il 1 may ayının 2-də Konstitusiya Komissiyasının üzvlüyünə yenidən baxılaraq onun tərkibinə hüquqşünaslar, iqtisadçılar və digər sahələrdən olan yüksəkixtisaslı mütəxəssislər daxil edilmişdir.

Yenidən təşkil olunmuş komissiyanın gərgin əməyi nəticəsində hazırlanmış layihə 1995-ci il oktyabr ayının 15-də mətbuatda dərc edilərək ictimaiyyət arasında, respublikanın bütün şəhər və rayonlarında geniş müzakirə olundu. Verilən təkliflər isə bir daha konstitusiya layihəsi hazırlayan komissiyaya göndərildi.

Bunlar yeni, müstəqil inkişaf yoluna qədəm qoyan xalqımızın tarixində mühüm əhəmiyyət kəsb edən sənədlər idi. Yeni Konstitusiyanın qəbul olunmasında əsas məqsəd Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, Konstitusiya çərçivəsində demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar olmasına nail olmaq, dünyəvi dövlət qurmaq, ümumbəşəri dəyərlərə sadiq olmaqla bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamaq və bu məqsədlə fəaliyyət göstərmək idi.

Konstitusiyada insanların hüquqları, azadlıqları, onların məsuliyyəti, xalq hakimiyyətinin və dövlətin cəmiyyət qarşısında yerinə yetirməli olduğu vəzifələr konkret və aydın şəkildə verilmişdir.

Hakimiyyətin yeganə mənbəyi kimi xalqın tanınması, ölkənin bütövlüyünün qorunması, insan hüquq və azadlıqlarının təmin olunması dövlətin ali məqsədi olaraq bəyan edilməsi kimi hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğuna imkan verən ideyaların Konstitusiyanın təməlində dayanması ölkəmizin bu ali sənədinin son dərəcə mütərəqqi olmasının vacib xüsusiyyətləridir. Əsas Qanun ənənəvi hüquqi dövlət məfkurəsini özündə ehtiva etməklə yanaşı, bu ideyaların inkişaf meyillərini də nəzərə alıb, onları özünəməxsus milli dəyərlər və təsdiq olunmuş müasir yanaşmalarla zənginləşdirib. Ümumilikdə isə Azərbaycan Konstitusiyasının hüquqi fəlsəfəsində bir ali məqsəd - insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı məramı dayanır. Bu mənada təsadüfi deyil ki, insan şəxsiyyətinin toxunulmazlığı, onun həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmini, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 12 fəsil, 158 maddədən ibarət olan Azərbaycan Konstitusiyasında insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Taleyüklü məsələ olan və səsvermə yolu ilə qəbul olunan Konstitusiyamızın əsas səciyyəvi xüsusiyyətlərindən biri də ondan ibarətdir ki, Konstitusiya respublikamızda yaşayan və fəaliyyət göstərən heç bir millətə, xalqa, etnik qrupa, milli azlığa, ictimai və siyasi quruma üstünlük vermədən, Azərbaycanda yaşayan bütün xalqların ümumi istək və arzularını, ümumi mənafelərini əks etdirən bir sənəddir. Bu Konstitusiya bəşər tarixinin onilliklərlə, yüzilliklərlə sınaqlardan keçmiş, beynəlxalq normaya çevrilmiş insan hüquqları, milli suverenlik və demokratiya prinsiplərinə əsaslanmışdır.

Konstitusiyanın insan hüquqları və vəzifələri ilə bağlı fəsilləri böyük demokratiya və dövlətçilik təcrübəsi olan inkişaf etmiş dövlətlərin müvafiq sənədlərindən nəinki geri qalmır, əksinə Ali Qanunumuzda həmin dövlətlərin insan və dövlətin münasibətlər sisteminin formalaşmasına aid olan qanunvericilik sənədləri Azərbaycan reallıqları və dünya ölkələrinin son təcrübələri bir qədər də yaradıcı şəkildə zənginləşdirilmişdir.

Müstəqil Azərbaycanın Milli Konstitusiyası həm vətəndaşların dövlət, həm də dövlətin vətəndaşları qarşısında daşıdığı məsuliyyət və vəzifələri əks etdirən yeni münasibətlər sistemi yaradılmasına nəzərdə tutur.

Bundan başqa, bu ali sənəd ictimai şüurda qanunçuluğa, qanunların hüquqi nüfuzuna, hüquqi mədəniyyətin yüksəldilməsinə də şərait və zəmin yaradır.

12 noyabr şərəfli bir bayram günü kimi tariximizə ölkəmizin ilk Milli Konstitusiya günü kimi daxil olmuşdur. Bu Konstitusiya bizim dövlətçiliyimizin bünövrəsini möhkəmləndirmişdir. Xalqımızın böyük oğlu, əbədiyaşar Heydər Əliyevin Azərbaycanda dövlətçiliyin yaranmasında, qurulmasında və qorunmasında xidmətləri böyük olmuşdur. Konstitusiyanın qəbul olunması da şəxsən onun təşəbbüsü olmuşdur. Gərgin iş prosesi haqqında Heydər Əliyev özü belə deyirdi: ***"Komissiyanın sədri kimi şəxsən mən bu böyük tarixi sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var ki, deyim çox zəhmət çək-mişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altında imza atıram və bu layihəyə görə bu gün tam cavabdeh olduğumu bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd, siyasi-hüquqi sənəd hazırlamışıq".***

Həyat durmadan irəli gedir. Müstəqilliyini əldə etmiş respublikamızın da həyatında baş verən müsbət irəliləyişlər artıq bütün sahələrdə dinamik inkişafa çevrilmişdir. Dünya birliyinə qovuşmaq, beynəlxalq arenada gedən demokratikləşmə prinsiplərinə zamanın tələbləri baxımından yanaşmaqdan ötrü əsas qanunumuzda dəyişikliklər etmək zərurəti meydana çıxarkən Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2002-ci il tarixli fərmanına əsasən 2002-ci ilin avqustun 24-də keçirilmiş ümumxalq səsverməsi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, insan hüquqlarının etibarlı qorunması sahəsində çox böyük tarixi hadisə oldu. Biz çox sevinirik ki, hər il təntənə ilə qeyd etdiyimiz Konstitusiyanın qəbulu Azərbaycanın demokratik, hüquqi və dünyəvi dövlət ideyalarına sadiqliyini bir daha təsdiqləməklə, onun beynəlxalq aləmdə daha yaxından tanınmasına, nüfuzunun artmasına geniş və real imkanlar açmışdır.

2009-cu il martın 18-də və 2016-cı il iyulun 26-da Azərbaycan Respublikası Konstitusiyasına əlavə və dəyişikliklərə bağlı keçirilmiş referendumlar da xalqımızın suveren hüququnu və azad siyasi iradəsini ifadə etməsinə maksimum imkan yaratmaqla, demokratikləşmə prosesində keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Bu referendumlara əsasən Ali Qanunda qəbul olunmuş əlavə və dəyişikliklər dövlətimizin hüquqi əsaslarının möhkəmlənməsinə yönəldilmişdir.

Növbəti, 23-cü ildönümünü qeyd etdiyimiz Konstitusiyamızda bütün demokratik təsisatlar, o cümlədən hər bir Azərbaycan vətəndaşının seçmək və seçilmək hüququ da təsbit olunmuşdur. Respublikamızda demokratik Seçki Məcəlləsinin qəbul olunması da bu istiqamətdə atılmış mühüm işlərə parlaq misaldır. Konstitusiya qəbul olunduqdan ötən dövr ərzində ölkəmizdə demokratik əsaslarla keçirilmiş prezident, parlament və bələdiyyə seçkiləri ilə Azərbaycan xalqı hüquqi dövlət quruculuğu prinsiplərinə, demokratik prinsiplərə sadiqliyini dünya ictimaiyyətinə nümayiş etdirmişdir.

Milli Konstitusiyanın verdiyi imkan və hüquqlardan əsl siyasətçi kimi son dərəcə məharətlə, uzaqgörənliklə istifadə edən, bununla da ulu öndər Heydər Əliyev məktəbinin layiqli davamçısı və siyasi varisi olduğunu bütün dünyaya sübut edən Prezidentimiz İlham Əliyevin yeritdiyi daxili və xarici siyasəti xalqımız ürəkdən bəyənir və dəstəkləyir. Azərbaycanda bu gün əsl demokratik, hüquqi və sivil dövlət qurulur. Bu yol Heydər Əliyev yoludur, xalqımızı inkişaf etmiş dünyaya qovuşduran, xarici aləmdən təcrid olunmağa qoymayan yoldur! Bu yolda bütün uğurlar ölkənin hər bir vətəndaşının firavan yaşamasından, insan azadlığının və haqlarının təmin olunmasından başlanır. Təsadüfi deyil ki, ölkəmizdə geniş vüsət almış inkişaf və islahatlar məhkəmə-hüquq sistemindən də yan keçməmişdir. Belə ki, son illərdə ölkədə həyata keçirilən hüquqi, siyasi və iqtisadi islahatların bir-birini tamamlaması zərurətini önə çəkən Prezident İlham Əliyev ulu öndərin möhkəm təməl üzərində əsasını qoyduğu məhkəmə-hüquq islahatlarını yeni dövrün tələbləri səviyyəsində davam etdirir. Demokratik dəyərlərin cəmiyyət həyatında getdikcə daha möhkəm əsaslarla inkişaf etdiyi, həyata keçirilən inkişaf strategiyasının makroiqtisadiyyatda müsbət nəticələr verdiyi, siyasi sistemin, vətəndaş cəmiyyəti təsisatlarının möhkəmləndiyi, beynəlxalq təşkilatlarla əməkdaşlığın yeni müstəvidə davam etdirildiyi bir şəraitdə məhkəmələrin fəaliyyətindəki bəzi çatışmazlıqlarla, qanuna zidd hallarla bağlı ictimai narazılıqların tamamilə aradan qaldırılması da Prezident İlham Əliyevin qarşıya qoyduğu başlıca vəzifələrdəndir. Təbii ki, hər bir dövlətin müstəqilliyini şərtləndirən, onu əbədiləşdirən amillərin başlıcası qanunların aliliyinin təminatından, məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi keyfiyyətindən, ədalət mühakiməsinin beynəlxalq tələblərə uyğunlaşdırılmasından asılıdır. İnkişaf etmiş demokratik ölkələrin təcrübəsi də göstərir ki, ictimai-siyasi həyatın bütün sahələri üzrə hüquqi bazanın möhkəm təməllər üzərində qurulması, ədalət prinsiplərinə ciddi şəkildə riayət olunması həmin dövlətdə sabitliyin, vətəndaş həmrəyliyinin və dinamik iqtisadi inkişafın başlıca təminatlarından biridir.

Məhkəmə sistemində ardıcıl və məqsədyönlü islahatların davam etdirilməsinin tərəfdarı olduğunu cənab İlham Əliyevin hələ 2006-cı il 19 yanvarda imzaladığı "Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi" və "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında qanunun tətbiq edilməsi barədə" fərman bir daha təsdiqləmişdir. Belə bir fərmanın imzalanması regionların sosial-iqtisadi inkişafı tədbirlərinin tərkib hissəsi kimi diqqəti çəkmiş və əhaliyə göstərilən hüquqi yardımın səviyyəsi yüksəldilmişdir.

Bundan əlavə, 1 yanvar 2011-ci il tarixindən qüvvəyə minmiş "İnzabati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin qəbul edilməsi insan hüquqlarının müdafiəsi istiqamətində yeni atılan addımlardan biri olmaqla, dövlət orqanları fəaliyyətinin insan hüquqlarının təminatı baxımından təkmilləşdirilməsi və dövlətlə vətəndaş cəmiyyəti arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsinə yönəlmişdir.

İnzibati-İqtisadi məhkəmələrin 1 yanvar 2011-ci il tarixdən fəaliyyətə başlaması insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmlərinin formalaşdırılmasının yeni mərhələsidir. İnzibati-İqtisadi məhkəmələr inzibati orqanların hüquqi nəticə yaradan fəaliyyətinin qanunauyğunluğuna nəzarəti həyata keçirməklə yanaşı, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsinin təminatçısı kimi çıxış edir.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinin qəbul edilməsi ilə vətəndaşların hüquqi müdafiə vasitələrindən istifadə etmək imkanı genişlənmiş, məhkəməyə inam və qaldırılan iddiaların sayı artmışdır ki, bu da vətəndaşların pozulmuş hüquqlarının daha etibarlı müdafiəsinə xidmət etmişdir.

Azərbaycan müstəqillik yolları ilə inamla irəliləyir. Ən başlıcası isə Prezidentimiz İlham Əliyev xalqımızın müdrik oğlu Heydər Əliyevin dövlət idarəçilik irsini dünyada və Azərbaycanın həyatında baş verən dəyişiklikləri nəzərə alaraq yeni meyillərlə inkişaf etdirir, daha da zənginləşdirir. Azərbaycan Milli Konstitusiyamızın verdiyi hüquqlardan istifadə edərək milli maraqlara uyğun və mənafelərinin qorunmasına yönəldilmiş siyasəti həyata keçirir.

**Nizami MÖVSÜMOV,**
**Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi.**

# Konstitusiya ölkəmizdə dünyəvi dövlət quruculuğu prosesində Əsas Qanun bazasıdır

**Azərbaycanda müstəqil qanunvericilik praktikasının əsası 1921-ci il may ayının 19-da qoyulmuşdur. Bundan bir qədər əvvəl 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinə Şərqdə ilk müsəlman dövlətinin Əsas Qanununu qəbul etmək müyəssər olmadı. Buna görə də Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmiş ilk Konstitusiya kommunist imperiyası tərəfindən planlaşdırılmış dövlət çevrilişini qanuniləşdirdi.**

Bundan sonra Azərbaycan SSR Konstitusiyasının yeni redaksiyaları 1925-ci və 1937-ci illərdə dördüncü və doqquzuncu Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdir. Ölkəmizin sonuncu 1978-ci il aprelin 21-dəki sovet Əsas Qanununun öz "sələflərindən" əsas prinsipial fərqi ondan ibarət idi ki, o vaxt Azərbaycana milli özünüdərk və özünəqayıdış proseslərinə böyük önəm verən Heydər Əliyev rəhbərlik edirdi və məhz onun qətiyyəti sayəsində Konstitusiyaya Azərbaycan dilini dövlət dili elan edən 73-cü maddə əlavə olundu. Sovet totalitar güruhu dövründə bu, misli görünməmiş cəsarət nümunəsi idi. Bütün parametrlərinə görə daha üstün müttəfiq respublikalar arasında məhz Azərbaycan Konstitusiyasına belə bir müddəanın daxil edilməsi təşəbbüsçüsünün müstəsna iradə və əzminə işarə edirdi.

1991-ci ildə Azərbaycan öz müstəqilliyini elan etdikdən sonra artıq yeni Əsas Qanunun qəbul edilməsinə ehtiyac yarandı. Bu ehtiyacı şərtləndirən amillər sırasında ölkədəki siyasi sistemin dəyişməsini, iqtisadi münasibətlərin prinsipcə yeni meyarlar əsasında köklənməsini, beynəlxalq aləmə inteqrasiya meyillərinin intensiv xarakter almasını, xarici siyasət sahəsində mövcud prioritetlərə köklü təshihlərin edilməsini, vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu sahəsində atılan konkret və məqsədyönlü addımları göstərmək olar.

Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsindən 23 il ötür. Müstəqil Azərbaycanın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan ilk Konstitusiya 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq səsverməsi — referendum yolu ilə qəbul edilib.

Dövlət müstəqilliyinin bərpa olunduğu ilk illərdə ölkədə bütün sahələrdə yaşanan xaosdan, Azərbaycanı parçalanmaq təhlükəsindən xilas etmək üçün xalqın hakimiyyətə dəvət etdiyi ulu öndərin böyük uzaqgörənliklə, cəsarətlə həyata keçirdiyi əsaslı islahatlar respublikamızı inkişaf yoluna çıxarmaqla yanaşı, qanunların aliliyini təmin edən, hüquqi, dünyəvi dövlət quruculuğuna yol açan yeni milli Konstitusiyanın hazırlanmasına və qəbuluna şərait yaratdı. Dövlət başçısı Heydər Əliyev bu barədə danışarkən deyirdi: "Biz elə bir layihə hazırlamalı və nəhayət elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü — ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

1995-ci ilin mayında ulu öndərin sədrliyi ilə Konstitusiya Komissiyası formalaşdırıldı. Komissiyanın hazırladığı bitkin, əhatəli Konstitusiya layihəsi 1995-ci ilin oktyabrında ümumxalq müzakirəsinə verildi. Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsinə çıxarıldı. Referendumda seçicilərin 86 faizi iştirak etdi və onların 91,9 faizi Konstitusiyanın qəbul edilməsinin lehinə səs verdi. Əsas Qanun noyabrın 27-də hüquqi qüvvəyə mindi.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən biridir. Bu Konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəddir.

Keçmiş sovet konstitusiyalarından fərqli olaraq, müstəqil Azərbaycanın Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan etdi. Hakimiyyət bölgüsünün əsas prinsiplərini müəyyənləşdirdi. İnsan və vətəndaş hüquqlarının, azadlıqlarının müdafiəsini qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları üzərinə ümdə vəzifə olaraq qoydu. Təsadüfi deyil ki, şəxsiyyətin toxunulmazlığı, insan həyat və sağlamlığının qorunması, layiqli həyat səviyyəsinin təmin olunması, humanizm və insanpərvərlik prinsipləri Azərbaycan Konstitusiyasının başlıca mahiyyətini təşkil edir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət Konstitusiyada insan hüquq və azadlıqlarına geniş yer verilməsi ölkəmizin demokratiya ideallarına sadiqliyinin göstəricisidir.

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizdə demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinə hüquqi baza yaratdı və onun inkişafına güclü təkan verdi. Konstitusiya qəbul edilən gün — noyabrın 12-də respublika parlamentinə ilk dəfə çoxpartiyalı sistem əsasında demokratik seçkilər də keçirildi. İlk Konstitusiyanın milli dövlətçilik tarixində müstəsna əhəmiyyəti nəzərə alınaraq, 1996-cı il 1 noyabr tarixli Fərmana əsasən hər il noyabrın 12-si Konstitusiya Günü kimi qeyd edilməyə başlandı.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyillərinə istinad olunmuş, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın — konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdir.

Bu müddəaya əsasən, 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci il iyulun 14-də Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinin 7 hakimi təyin olundu. İyulun 18-də isə ulu öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin müstəqilliyinin və hakimlərinin hüquqi statusunun təmin edilməsi barədə Fərman imzaladı. Bununla da Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başladı. Doqquz hakimdən ibarət bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə Konstitusiyanın aliliyini qoruyur.

Ötən 23 ildə ölkəmizin sürətli inkişafı nəticəsində yeni dövrün tələblərinin yaratdığı zərurətlə əlaqədar Azərbaycan Konstitusiyasına bir neçə dəfə əhəmiyyətli dəyişikliklər və əlavələr edilib. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyaya üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsinə edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlib.

Beləliklə, Azərbaycan Respublikasının Konstitusiyasına edilən əlavə və dəyişikliklər nəticəsində Əsas Qanunumuz daha da təkmilləşdirilərək yeni dövrün tələblərinə uyğunlaşdırılıb. Gənc Azərbaycan Respublikası üçün yeni Konstitusiya — Əsas Qanun ölkədə Heydər Əliyevin dahi idarəçilik fəlsəfəsinə söykənən dövlət quruculuğu prosesinin təməlini yaratdı.

Qəbul olunduğu gündən ötən 23 ildə Azərbaycan dövlətinin diqqəti respublika həyatının bütün sahələrini Əsas Qanunumuza uyğunlaşdırmağa və ondan irəli gələn başlıca tələbləri həyata keçirməyə yönəlmişdir. Bu gün ən mühüm vəzifə ulu öndər Heydər Əliyevin dediyi kimi: "...Konstitusiyanı daha dərindən mənimsəmək və onun verdiyi təminatlardan bəhrələnməkdən ibarətdir. Hər bir şəxs Konstitusiya qanunlarına dönmədən əməl etməli, dövlət və cəmiyyət qarşısında bu sənəddən irəli gələn vəzifələrini layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir".

**Şaiq MİRZƏYEV,**
**"AzLegal Consulting International Services" hüquq şirkətinin Baş direktoru, hüquq elmləri üzrə fəlsəfə doktoru.**

# Heydər Əliyev Fondu və Milli Onkologiya Mərkəzi Gəncə-Qazax bölgəsində birgə onkoloji skrininq və elmi-praktiki konfrans keçiriblər





**Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinin və Heydər Əliyev Fondunun Regional İnkişaf İctimai Birliyinin (RİİB) birgə təşkilatçılığı ilə onkoloji xəstəliklərin erkən diaqnostikası məqsədilə noyabrın 5-8-də Gəncə-Qazax bölgəsində tibbi müayinələr keçirilib.**

Milli Onkologiya Mərkəzinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu müddət ərzində əhalinin müxtəlif təbəqələri üzrə 1838 nəfər üzərində kompleks müayinələr aparılıb, onların 28 nəfərində xərçəng xəstəliyinin bəzi simptomları şübhəsi aşkar olunub.

Yaranmış vəziyyətlə bağlı təxirəsalınmaz tədbirlər görülüb. Həmin xəstələr ciddi nəzarətə alınıb və daha geniş diapazonlu müayinə üçün Milli Onkologiya Mərkəzinə dəvət olunublar.

Noyabrın 9-da Milli Onkologiya Mərkəzinin baş-boyun şişləri şöbəsinin cərrah-onkoloqu, professor Əziz Əliyev Gəncədə üç xəstə üzərində mürəkkəb onkoloji əməliyyat keçirib. Bu lokal əməliyyat skrininq proqramı çərçivəsində aparılıb və tədbir iştirakçıları olan tibbi mütəxəssislərin treninqinin əyani şəkildə reallaşmasına əhəmiyyətli şəkildə yardım edib.

Bu tipli silsilə tədbirlərin yekunu kimi, noyabrın 10-da Gəncə şəhərindəki Heydər Əliyev Mərkəzində Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin və Heydər Əliyev Fondu Regional İnkişaf İctimai Birliyinin dəstəyi ilə "Bədxassəli şişlərin diaqnostika və müalicəsinə multidisiplinar yanaşma" mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda Gəncə, Goranboy, Göygöl, Samux, Gədəbəy, Daşkəsən, Şəmkir, Tovuz, Ağstafa, Qazax rayonlarında çalışan 150-dən çox onkoloq, ginekoloq, endokrinoloq, uroloq və cərrah iştirak ediblər.

Tədbirdən əvvəl Milli Onkologiya Mərkəzindən olan qonaqlar Gəncədə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyublar.

Konfransı giriş sözü ilə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş onkoloqu, Milli Onkologiya Mərkəzinin baş həkimi Azad Kərimli açıb. O bildirib ki, son illər ərzində Azərbaycan rəhbərliyinin yüksək diqqət və qayğısı sayəsində Milli Onkologiya Mərkəzi ölkəmizdə ixtisaslaşdırılmış onkoloji yardımların göstərilməsi və elmi-metodiki, profilaktik işlərin əlaqələndirilməsi üzrə Cənubi Qafqaz bölgəsinin ən qabaqcıl və nüfuzlu aparıcı müəssisəsinə çevrilib.

Milli Onkologiya Mərkəzinin Baş direktorunun birinci müavini, baş-boyun şişləri şöbəsinin cərrah-onkoloqu, professor Əziz Əliyev ölkəmizdə bu sahədə əldə olunan nailiyyətlərdən danışaraq qeyd edib ki, bu gün respublikamızın sürətli iqtisadi inkişafı bütün sosial sahələrin, o cümlədən səhiyyənin inkişafına müsbət təsir göstərib. Əziz Əliyev Prezident İlham Əliyevin səhiyyənin inkişafına xüsusi diqqət və qayğı göstərdiyini vurğulayıb. O bildirib ki, Milli Onkologiya Mərkəzinin cərrahiyyə korpusunun tikilməsi Azərbaycan Prezidentin dəstəyi ilə reallaşdırılıb. Mərkəzin Uşaq Onkoloji Klinikasının yaradılmasında isə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın müstəsna xidmətləri olub.

Baş-boyun şişlərinin müalicəsində cərrahi əməliyyatın əhəmiyyətindən danışan professor Əziz Əliyev xüsusi vurğulayıb ki, Milli Onkologiya Mərkəzində akademik Cəmil Əliyevin rəhbərliyi ilə yaradılmış müasir şərait, innovativ yeniliklər və modern avadanlıqlar bu əməliyyatların dünya standartlarına tam uyğun aparılmasına imkan yaradır. Ə.Əliyev son dövrdə dünyanın müxtəlif ölkələrindən onlarla insanın Milli Onkologiya Mərkəzinə üz tutmasını uzun illərdən bəri çəkilən gərgin zəhmətin bəhrəsi və sevindirici tendensiya kimi dəyərləndirib.

Konfransda Mərkəzin həkimlərinin "Baş-boyun şişlərinin müasir cərrahi müalicəsi", "Süd vəzi və uşaqlıq boynu xərçənginin erkən mərhələdə aşkarlanmasının müasir metodları", "Mədə xərçənginin cərrahi müalicəsində müasir prinsiplər", "Uroonkoloji xəstəliklərə müasir yanaşma", "Həzm və tənəffüs orqanlarında aparılan müasir endoskopik müayinə və müalicə metodları", "Onkoloji diaqnostika və müalicədə yeni era: Nüvə təbabəti", "Bədxassəli yenitörəmələrin dərman və şüa müalicəsində müasir prinsiplər" mövzularında çıxışları dinlənilib. Xərçəng xəstəliyinin müalicə və müayinəsində multidisiplinar yanaşmaların özündə əks etdirən çıxışlar maraqla qarşılanıb.






Gəncə-Qazax bölgəsində Milli Onkologiya Mərkəzinin və Heydər Əliyev Fondu Regional İnkişaf İctimai Birliyinin dəstəyi ilə keçirilmiş kompleks tədbirlər sakinlər tərəfindən böyük mütəşəkkillik və razılıqla qarşılanıb, dövlətin bölgələrdə əhalinin sosial və tibbi müdafiəsi sahəsində reallaşdırılan strategiyasına böyük dəstəyi kimi dəyərləndirilib.

**AZƏRTAC**

# Əsas Qanunumuz özündə demokratik, hüquqi və dünyəvi dəyərləri əks etdirir



**Hər bir cəmiyyətin və dövlətin həyatında xüsusi rol oynayan Konstitusiya təkcə normativ-hüquqi aktlardan ibarət deyil, o, həm də sosial, iqtisadi və siyasi münasibətlərin inkişafının əsasını təşkil edir.**

1995-ci il noyabrın 12-də qəbul edilmiş Azərbaycan Konstitusiyası da insanın ən böyük dəyər kimi qiymətləndirdiyi yeni və azad demokratik dövlətin qurulmasına imkan verdi, vətəndaşların hüquq və azadlıqlarının qorunması üçün sarsılmaz təminat yaratdı. Xalqımızın ümummilli lideri, dahi şəxsiyyət Heydər Əliyevin bilavasitə təşəbbüsü və müəllifliyi ilə hazırlanmış ilk müstəqil milli Konstitusiyamız müasir dünyanın ən mütərəqqi əsas qanunlarından biri olmaqla yanaşı, müstəqil dövlətçilik tarixində yeni mərhələnin açılmasına və ictimai-siyasi həyatımızda dinamik inkişafa nail olmağımıza güclü təkan verməklə qanunvericilik tarixində özünəməxsus möhürə çevrildi.

Vurğulamaq lazımdır ki, 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dövründə Konstitusiya qəbul etmək mümkün olmamışdı. Sonrakı sovetlər dönəmində qəbul edilmiş konstitusiyalar isə mahiyyət etibarilə müstəqil dövlətçilik və suveren xalq anlayışına uyğun gəlməyən formal sənədlər kimi yadda qalmışdı. Azərbaycanın birinci Konstitusiyası 1921-ci il mayın 19-da Ümumazərbaycan Sovetlər Qurultayında qəbul edilmişdi. 1921-ci il Konstitusiyası keçmiş SSRİ Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də Ümumazərbaycan Sovetlər Qurultayında təsdiqlənmişdi.

Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası keçmiş SSRİ Konstitusiyasına uyğunlaşdırılmış olsa da respublikanın dövlət dili məsələsində müəyyən özünəməxsusluğa malik olmuşdu. 12 noyabr 1995-ci ildə ümumxalq referendumu əsasında qəbul edilmiş Əsas Qanunumuz isə Azərbaycan Respublikasının müstəqilliyi bərpa edildikdən sonra ilk Konstitusiya kimi tarixə düşdü.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra yeni Konstitusiya layihəsi üzərində ciddi iş aparılmışdı. 1994-cü ildə ulu öndər Heydər Əliyevin sədrliyi ilə Konstitusiya Komissiyası fəaliyyətə başlamışdı. Əsas Qanunun baza müddəaları, daha sonra isə onun layihə mətni ictimai müzakirəyə çıxarılmışdı. Bir neçə ay ərzində mətbuatda bu mövzuda diskussiyalar getmiş, ayrı-ayrı məsələlər, o cümlədən Konstitusiyada dövlət dilinin adının (Azərbaycan dili) necə təsbit olunması ilə bağlı geniş mütəxəssis auditoriyasının iştirakı ilə toplantılar keçirilmişdi. 1995-ci il noyabrın 12-də keçirilmiş ümumxalq referendumu nəticəsində Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul olunmuşdu. 1995-ci ilin 12 noyabrından sonrakı dövrə nəzər salsaq, görərik ki, bu istiqamətdə geniş hüquqi islahatlar həyata keçirilmişdi. Belə ki, 1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının demokratik təsisatların inkişafının təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara qoşulmuşdur. 1998-ci il fevralın 10-da Azərbaycanda ölüm hökmünün icrası ləğv edilmişdi.

Böyük dövlət xadimi Heydər Əliyev yeni Konstitusiyanın mükəmməl sənəd kimi hazırlanmasının əhəmiyyətini belə açıqlamışdı: *"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".* Bundan sonra Konstitusiya layihəsi üzərində aparılan gərgin və məhsuldar iş nəticəsində, beynəlxalq prinsiplərə cavab verən, bazar iqtisadiyyatına hər vasitə ilə rəvac verən, demokratik və eyni zamanda, dünyəvi dəyərləri özündə əks etdirən Konstitusiya layihəsi hazırlanmışdı.

Mütərəqqi və bəşəri dəyərləri özündə əks etdirən Konstitusiyamızın dərindən öyrənilməsinin və təbliğ olunmasının böyük əhəmiyyəti vardır. Ona görə də hüququn və qanunun hakim olacağı bir cəmiyyətdə hər kəsin öz hüquqlarını və vəzifələrini bilməsi, bu hüquqlardan taraclanması və vəzifələrini doğru-düzgün yerinə yetirməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

İlk milli Konstitusiyamızın qəbul olunduğu vaxtdan ötən 23 il ərzində Azərbaycan dövlətinin fəaliyyəti də ictimai-siyasi prosesləri Konstitusiyamıza uyğunlaşdırmağa və ondan gələn başlıca tələbləri həyata keçirməyə yönəlmişdir. Buna görə də əminliklə demək olar ki, ulu öndərimiz Heydər Əliyevin memarı olduğu Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası yaşayır və ölkəmizi tərəqqiyə aparır.

Bu gün qürurla deyə bilərik ki, ulu öndərimizin banisi və müəllifi olduğu Azərbaycan Respublikasının ilk demokratik Konstitusiyası yaşayır və ölkəmizi yüksək inkişafa aparır. Ümummilli liderimizin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev öz gündəlik fəaliyyətində daim Konstitusiyaya istinad edərək dövlətçiliyimizi, iqtisadiyyatımızı və cəmiyyətimizi daha mütərəqqi inkişafa aparır, daha yüksək və qlobal uğurlara imza atır. Bunu hazırda ölkəmizdə həyata keçirilən, xalq tərəfindən dəstəklənən və müsbət nəticələri beynəlxalq qurumlar tərəfindən etiraf olunan genişmiqyaslı Dövlət proqramlarının reallaşması, iqtisadi, sosial və mədəni siyasətin nəticələri təsdiq edir.

**Ağacan ABİYEV,**
**millət vəkili, professor.**

# Azərbaycan və Türkiyə ürək-damar cərrahlarının birgə toplantısı keçirilib

**Türkiyənin Antalya şəhərində Türkiyə Ürək və Damar Cərrahiyyəsi Dərnəyinin (TÜDCD) XV Beynəlxalq Konqresi keçirilib.**

AZƏRTAC xəbər verir ki, konqresin məqsədi ürək-damar cərrahiyyəsi sahəsində dünyanın tanınmış mütəxəssisləri ilə təcrübə mübadiləsi aparmaq, tətbiq olunan yenilikləri və texnologiyaları müzakirə etmək olub.

Konqresin proqramı çərçivəsində Türkiyə Ürək və Damar Cərrahiyyəsi Dərnəyi Kaliforniya və Kembric Universitetləri, Avropa Flebologiya Kolleci kimi dünyanın nüfuzlu beynəlxalq təşkilatları ilə birgə iclaslar keçirib. Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyəti (AÜDCC) və Türkiyə Ürək və Damar Cərrahiyyəsi Dərnəyinin birgə toplantısı da təşkil olunub. Toplantı AÜDCC-nin sədri, professor Kamran Musayev və TÜDCD-nin sədr müavini, professor Mehmet Ali Özatikin rəhbərliyi altında keçib.







Tədbirdə K.Musayev "Minimal İnvaziv ürək Cərrahiyyəsi: Bakı təcrübəsi", AÜDCC üzvü tibb üzrə fəlsəfə doktoru Seymur Musayev isə "Orta İskemik MY-də mitrala müdaxilə edilməlidir" mövzusunda məruzə ilə çıxış ediblər.

Toplantı Türkiyədən olan cərrahların mövzu ilə əlaqədar çıxışlarından sonra müzakirələrlə davam etdirilib.

Tədbirdə ölkəmizin müxtəlif klinikalarında çalışan ürək-damar cərrahları əldə etdikləri nəticələri tezislər və posterlər şəklində konqresdə təqdim ediblər.

Hər bir həkim çalışmalıdır ki, qlobal dünyada təbabətdə baş verən inkişafla ayaqlaşsın deyə tədbir barədə məlumat verən K.Musayev bildirib: "Konqres gənc cərrahların inkişafı baxımından çox əhəmiyyətli tədbirdir. Bundan əlavə Türkiyədə keçirilən konqres beynəlxalq əməkdaşlığımızı genişləndirməklə yanaşı, ürək-damar cərrahiyyəsində tətbiq olunan yeni texnologiyalar və üsullarla tanış olmaq baxımından da çox faydalı oldu. Bu konqresdə cəmiyyətimiz geniş tərkibli heyətlə iştirak etdi. Olduqca zəngin elmi proqramı olan konqresin xüsusilə gənc həmkarlarım üçün biliklərinin artırılması baxımından faydalı olduğunu düşünürəm. Konqres çərçivəsində AÜDCC-TÜDCD birgə toplantısının keçirilməsi isə qardaş Türkiyədən olan həmkarlarımızla əməkdaşlığımızın yüksək səviyyədə olmasından xəbər verir. Biz çalışırıq ki, cəmiyyətimizin hər bir üzvü beynəlxalq konqreslərdə iştirak etsin, daim öz bilik və təcrübələrini yeniləsin. Bu istiqamətdə ardıcıl fəaliyyət göstəririk, müxtəlif ölkələrin bənzər qurumları ilə əməkdaşlıq edirik. Cəmiyyət üzvlərimizin beynəlxalq təcrübədən daha çox faydalanmaları üçün bu əməkdaşlıqları bundan sonra da davam etdirəcəyik."

**AZƏRTAC**

# Qürur və iftixar mənbəyimiz

**Ağstafada Dövlət Bayrağı Günü münasibətilə ümumrayon tədbiri keçirilmişdir. Yeni Azərbaycan Partiyasının inzibati binasının önündə Dövlət Bayrağı Günü ilə əlaqədar keçirilən tədbirdə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, hüquq-mühafizə orqanlarının rəhbərləri, Müdafiə Nazirliyinin əməkdaşları, hərbçilər, ziyalılar və ictimaiyyət və KİV nümayəndələri iştirak ediblər. Qeyd edilib ki, milli bayrağımız müstəqilliyimizi təcəssüm etdirən rəsmi dövlət rəmzlərindən biridir. Dövlət bayrağı meydanının salınması Azərbaycanın gücünü, Azərbaycan xalqının öz dövlətinə sevgisini, dövlət rəmzlərimizə ehtiramımızın bariz nümunəsidir. Dövlət rəmzləri Azərbaycan xalqının və Prezidentinin daim diqqət mərkəzindədir.**

Sonra tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində ulu öndərin abidəsi önünə gül dəstələri qoyublar. Yürüşün keçirilməsində əsas məqsəd milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hissinin və milli-mənəvi dəyərlərin aşılanmasıdır. Həmçinin Ağstafa rayonu Heydər Əliyev Mərkəzinin böyük konfrans zalında Dövlət Bayrağı Gününə həsr olunmuş konfrans keçirilib. Tədbirdə rayon icra hakimiyyətinin məsul işçiləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.



Konfransı giriş sözü ilə açan Ağstafa Rayon İcra Hakimiyyəti başçısının müavini Lalə Eyubova bildirmişdir ki, Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında ilk hökumət qərarı Azərbaycan Xalq Cümhuriyyəti dövründə - 1918-ci il iyun ayının 24-də verilib. Azərbaycan Respublikasının üçrəngli bayrağı ikinci dəfə 1990-cı il noyabr ayının 17-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında qaldırılmışdır. İcra başçısının müavini Lalə Eyubova çıxışında qeyd etmişdir ki, Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət Bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilmişdir. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir.

**Vəli VƏLİYEV,**
**"Respublika".**

# Horadizdə bayraq yürüşü

**Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı 72 ildən sonra - 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən Ali Məclisin sessiyasında müstəqil respublikanın Dövlət Bayrağı kimi qəbul edilib. Eyni zamanda, Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılıb.**

1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti "Dövlət Bayrağı haqqında" Qanun qəbul edərək, üçrəngli bayrağa Azərbaycan Respublikasının Dövlət Bayrağı statusu verib. Həmin il oktyabrın 18-də isə Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət rəmzləri, o cümlədən Dövlət Bayrağı qəbul edilib.

Təhsil Nazirliyi və Müdafiə Nazirliyi Füzuli Rayon İcra Hakimiyyəti ilə birgə Horadiz şəhərində Dövlət Bayrağı Günü münasibətilə "Bayraq yürüşü" keçirib. Yürüşün keçirilməsində məqsəd milli atributlarımızın təbliği, gənclər arasında vətənpərvərlik hissi və milli-mənəvi dəyərləri aşılamaqdır.

Yürüşdə Təhsil və Müdafiə nazirliklərinin rəhbər şəxsləri, hərbçilər, Qarabağ müharibəsi veteranları, gənclər, müəllim və şagirdlər, QHT nümayəndələri iştirak ediblər. Yürüş iştirakçıları əvvəlcə Horadiz şəhərində ulu öndərin xatirəsinə ucaldılmış abidənin önünə gül dəstələri qoyublar.



Üç mindən çox insanın iştirak etdiyi yürüş Heydər Əliyev parkından Dövlət Bayrağı Meydanına qədər davam edib. Təhsil nazirinin müavini Firudin Qurbanov tədbirdə çıxış edərək, Azərbaycan dövlətinin və istiqlalının müqəddəs rəmzlərindən olan bayrağın milli kimliyimizin simvolu və bu il 100-cü ildönümü qeyd edilən Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olduğunu vurğulayıb.

Rayon İcra Hakimiyyətinin başçısı Alı Alıyev Dövlət Bayrağı Gününün qeyd olunmasını dövlətçilik tarixinin əlamətdar hadisəsi kimi qiymətləndirib. Cəbhə bölgəsində belə tədbirin keçirilməsinin gənclərdə bayraq sevgisini daha da artıracağını vurğulayıb. Bildirib ki, respublikanın bütün bölgələrində olduğu kimi, Horadiz şəhərində də Bayraq Meydanı inşa edilib. 10 hektar ərazidə salınan Bayraq Meydanında ucaldılan 67 metr hündürlüyündə bayraq dirəyi bütün ətraf ərazilərdən aydın görünür və cəbhə bölgəsində yaşayan füzulililərin qəlbini fərəh, qürur hissi ilə doldurur.

Tədbirdə çıxış edən N saylı hərbi hissənin zabiti Elşad Əbilov və professor Anar İsgəndərov "Bayraq yürüşü"nün keçirilməsini təqdirəlayiq hal kimi dəyərləndirib, üçrəngli bayrağımızın hər zaman yüksəklərdə dalğalanacağına əmin olduqlarını bildiriblər.

Daha sonra əsgərlər döyüş hazırlığı səviyyəsini nümayiş etdirib, məktəblilərin ifasında bayrağa aid mahnı və rəqslər təqdim olunub.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Diabetə birlikdə qalib gələk

**Noyabr ayının 12-də Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), Respublika Endokrinologiya Mərkəzi (REM) və Azərbaycan Diabet Liqasının (ADL) birgə təşkilatçılığı ilə "Holiday İnn" otelində Ümumdünya Diabet Gününə həsr olunmuş tədbir keçirildi.**





"Diabetə birlikdə qalib gələk" və "Diabet və Ailə" devizi altında keçirilən tədbiri giriş sözü ilə İSİM-in Səhiyyə siyasəti və islahatlar şöbəsinin müdiri **Şəhla Mirzəzadə** açaraq dedi: "1991-ci ildən ÜST-nın və BDF-nın təşəbbüsü ilə, eləcə də, 2007-ci ildən etibarən BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnaməyə əsasən, hər il 14 noyabr - Ümumdünya Diabet Günü kimi qeyd olunur. Bugünkü tədbir də dövrümüzün ən geniş yayılmış xəstəliklərindən olan şəkərli diabetə həsr olunub. Tədbirin keçirilməsində məqsəd ictimaiyyəti xəstəliyin səbəbləri, simptomları, fəsadları və müalicəsi ilə bağlı məlumatlandırmaq, xəstəliyin inkişafının qarşısının alınması yollarını araşdırmaqdır. Ümumiyyətlə, təşkilat olaraq həyata keçirdiyimiz bütün tədbirlərin məqsəd və məramı sağlam cəmiyyət formalaşdırmaqdır. Çünki sağlam cəmiyyət sağlam gələcək deməkdir. Odur ki, aidiyyəti təşkilatlarla birgə hazırladığımız bu tədbir vasitəsilə hər kəsi diabetə birlikdə qalib gəlməyə səsləyirik".

Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdir müavini **Nabil Seyidov** diabetin səhiyyə qarşısında duran əsas çağırışlardan biri olduğunu vurğulayaraq, ölkəmizdə bu istiqamətdə görülən işlərdən söz açdı: "Azərbaycanda diabetə qarşı mübarizə məqsədi ilə "2016-2020-ci illər üçün Şəkərli Diabet üzrə Dövlət Proqramı" icra edilir. Proqram çərçivəsində şəkərli diabet xəstələrinin vahid elektron registrinin və məlumat bazasının təkmilləşdirilməsi, şəkərli diabet xəstəliyinin profilaktikası, müalicə və reabilitasiyası, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin dərman preparatları və özünənəzarət vasitələri ilə davamlı təmin edilməsi, o cümlədən digər tədbirlər həyata keçirilir. Bir sözlə, qeyd etmək istəyirəm ki, dövlətimiz dövrün, zamanın qaçılmaz xəstəliyi olan diabetli xəstələrə hər cür diqqət və qayğı göstərir. Lakin hər kəs öz sağlamlığının qeydinə qalmalı, davamlı fiziki aktivliklə, sağlam qidalanmaqla bu xəstəliyə qalib gəlməli, onu həyat tərzinə çevirməlidir".

Respublika Endokrinologiya Mərkəzinin direktor müavini **Babək Salek** isə şəkərli diabetin yayılma statistikası haqqında məlumat verərək qeyd etdi ki, Ümumdünya Səhiyyə Təşkilatının tədqiqatlarına əsasən, 2030-cu ildə şəkərli diabetdən vəfat edənlərin sayına görə bu xəstəlik 7-ci yerdə qərarlaşacaq. Şəkərli diabetə tutulmuş insanların sayı gündən-günə artır. Lakin bu o demək deyil ki, diabetli insan normal həyat sürə bilməz. Şəkərli diabeti vaxtında müəyyənləşdirib onunla mübarizə aparsaq, diabetin fəsadları ilə qarşılaşmarıq. Bu gün milli səhiyyəmiz davamlı inkişaf edir. Bütün xəstəliklərin, o cümlədən də şəkərli diabetin insan həyatı üçün təhlükəli olmasının qarşını almaq mümkündür. Bunun üçün diabeti nəzarətdə saxlamaq və saglam həyat tərzi keçirmək kifayətdir. Biz 14 noyabrı bayram kimi qeyd etmirik.Bu günü ona görə təntənəli şəkildə qeyd edirik ki, bu gün insanlara sağlam həyat tərzi keçirməyin zəruriliyini anlatsın.

"Narınc" Uşaq Psixologiya Mərkəzinin rəhbəri **Narınc Rüstəmova** ailənin diabet xəstəsi olan şəxs üçün rolu, onların düzgün yanaşmasında pasiyentə əhəmiyyəti, Ailə Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi **Nurlana Qaraxanova** diabetlə mübarizə sahəsində qarşılıqlı əməkdaşlığın zəruriliyi, Azərbaycan Diabet Liqasının ictimaiyyətlə əlaqələndiricisi və idarə heyətinin üzvü Samirə Xəlilova vətəndaş cəmiyyətinin diabeti olan vətəndaşların həyatında rolu haqqında danışdı. Tədbirin sonunda **Azərbaycan Diabet Liqasının sədri Yeganə Sultanova** "Diabet nəzarətdə, uğur irəlidə" layihəsinin video çarxını təqdim edərək, bu layihənin diabeti olan uşaqlara əhəmiyyətindən, ailənin bu uşaqlara müsbət təsirindən danışdı: "Diabet nəzarətdə, uğur irəlidə!" pilot layihəsi ilk dəfə olaraq Azərbaycan Diabet Liqası İB tərəfindən həyata keçirilir. Layihənin mahiyyəti şəkərli diabet diaqnozu qoyulmuş uşaqlara və onların ailələrinə xəstəliyin düzgün idarə edilməsi fonunda, istənilən uğurun qazanılmasının mümkün olduğunu göstərmək, cəmiyyətimiz üçün sağlam, layiqli övladlar yetişdirməkdir. Uşaqların cəmiyyətə inteqrasiyası ailənin onlara münasibətindən, dəstəyindən bilavasitə asılıdır. Bu il Dünya Diabet Günü məhz "DİABET və AİLƏ"yə həsr edilib.

Layihədə 15 yaşa qədər diabetı olan uşaqlar arasında 3 mərhələdə müsabiqə aparıldı. I mərhələdə Yasamal rayon Heydər Əliyev Mərkəzində uşaqlar test üsulu ilə şəkərli diabet haqqında suallara cavab verdilər. Münsiflər heyətinin üzvləri- 6 saylı UKX-nın endokrinologiya şöbəsinin pediatr endokrinoloqları Zülfiyyə Kazımova, Nabat Ağayeva və ATU-nin pediatr endokrinoloqu Ləman Sultanova uşaqların cavablarını şəffaf şəkildə dəyərləndirdilər. II mərhələdə isə uşaqlar rəsm, musiqi, idman, rəqs və inşa yazı sahəsində öz qabiliyyətlərini nümayiş etdirdilər. Respublikamızın əməkdar artisti Tahir Eynullayev, Azərbaycan Rəssamlar İttifaqının üzvü İlqar Əkbərov, vokalist Mətin Rzazadə və "Respublika" qəzetinin əməkdaşı Mehparə Əliyevadan ibarət münsiflər heyəti iştirakçıların yaradıcılıq qabiliyyətlərini qiymətləndirdilər. III mərhələdə isə ballar ümumiləşdirilərək qaliblər müəyyən olundu. Qeyd etmək istəyirəm ki, bu layihədə iştirak edən hər bir uşaq və ailə qalibdir. Çünki, xəstəliyi həyat tərzinə çevirib, onu idarə etmək, həyat eşqi ilə yaşayıb yaratmaq və bundan ehtiyat etmədən açıq şəkildə başqalarına nümunə olmaq, sözün əsl mənasında qalibiyyətdir. Müsabiqədə 50 nəfər iştirak edirdi. Onlardan 2 nəfəri regiondan (Tərtər və Gəncə şəhərindən) olduğu üçün fərqləndirildi. Digər 4 nəfər azyaşlı uşaqlar isə müsabiqədən kənar mükafatlandırıldıl. 1-ci yerə Qocayeva Əminə, 2-ci yerə Osmanova Arzu, 3-cü yerə isə Əkbərli Nurlan layiq görüldü. Bütün iştirakçılara sertifikat və hədiyyələr verildi. Ümidvaram ki, günündən, tarixindən asılı olmayaraq belə tədbirlərimizin sayı çox olacaq. Və hər birimiz "Diabetə birlikdə qalib gələk" devizi altinda sıx birləşərək şəkərli diabeti xəstəlik deyil, həyat tərzimizə çevirəcəyik. Son olaraq layihənin ərsəyə gəlməsində, Azərbaycanın kiçik vətəndaşlarının rifahının yüksəlməsi uğrunda əllərindən gələni əsirgəməyən Yasamal Rayonu İcra Hakimiyyəti başçısının müavini Təravət Muradovaya, REM-in rəhbərliyinə, Novonordisk şirkətinin Azərbaycan nümayəndəliyinin rəhbəri Araş Nosratiyə, BakuMall AVM direktoru Fuad Hacıyevə, Heydər Əliyev Mərkəzinin direktoru Naminə Ömərovaya, Remedi qrup/Azərbaycan şirkətinin rəhbəri Səbuhi Quliyevə, Nobel İlac/Azərbaycan nümayəndəsi Bilal Kalkana, Vəfa İlac/Azərbaycan rəhbərliyinə, Eli Lilly Vostok S.A. şirkətinin rəhbərliyinə, Sanofi/Azərbaycan şirkətinin rəhbərliyinə, Azərbaycan Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzinin rəhbərliyinə, ADL-nın könüllülərinə, münsiflər heyətinə xüsusən də hər zaman yanımızda olan, mövcud problemləri və onların həlli yollarını cəmiyyətə çatdırmaqda bizə dəstək verən media nümayəndələrinə dərin minnətdarlığımı bildirirəm".

Layihə çərçivəsində müsabiqə iştirakçıları və qaliblər mükafatlandırıldıqdan sonra layihənin gerçəkləşməsində əməyi olan insanlara və təşkilatlara təşəkkürnamələr təqdim edildi. Sonda tədbir iştirakçılarına təşkilatçılar tərəfindən hazırlanmış bukletlər və İSİM tərəfindən çap edilən maariflendirici materiallar paylanıldı.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# "Ölkəmizi tanıyaq" maarifləndirici tur-aksiyasının növbəti mərhələsinə start verilir

## *X tur-aksiyada 76 şəhər və rayondan, ümumilikdə, 3190 nəfər iştirak edəcək*

**Artıq beşinci ildir ki, Azərbaycanın orta ümumtəhsil məktəblərinin 9-11-ci sinif şagirdlərinin "Ölkəmizi tanıyaq" devizi altında Vətənimizin müxtəlif bölgələrinə maarifləndirici tur-aksiyaları təşkil olunur. Dövlətimizin başçısı İlham Əliyevin tövsiyəsinə əsasən Prezident Administrasiyasının təşkilatçılığı ilə keçirilən tur-aksiyalar gözəl ənənə halı alıb.**

AZƏRTAC xəbər verir ki, layihənin əsas məqsədi şagirdləri ölkəmizin müxtəlif bölgələrinin müasir həyatı, tarixi, mədəni irsi, adət-ənənələri, özünəməxsus xüsusiyyətləri, ümummilli lider Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycanın nailiyyətləri ilə yaxından tanış etmək, Prezident İlham Əliyevin qətiyyəti və iradəsi ilə respublikamızın dinamik sosial-iqtisadi inkişafı, gündən-günə abadlaşan şəhər və rayonlarımızın yeniləşən siması barədə gənclərdə əyani təsəvvür yaratmaqdır.

Ötən müddətdə ildə iki dəfə olmaqla 7 istiqamət üzrə (Bakı şəhəri, Naxçıvan MR, Gəncə-Şəmkir-Göygöl, Şamaxı-İsmayıllı-Qəbələ-Şəki-Zaqatala, Quba-Qusar-Xaçmaz, Lənkəran-Masallı-Lerik-Astara, Naftalan-Ağcabədi-Ağdam-Bərdə-Füzuli-Tərtər) 9 tur-aksiya təşkil edilib. Ölkəmizin bütün bölgələrinin əhatə olunduğu bu tur-aksiyalarda, ümumilikdə, 20 min 254 nəfər iştirak edib.

Noyabr ayının 14-17 və 18-21 tarixlərini əhatə edəcək növbəti 10-cu tur-aksiyada isə 4 istiqamət üzrə 76 şəhər və rayondan, o cümlədən məcburi köçkün rayonlarından, ümumilikdə, 3190 nəfər iştirak edəcək. Bununla da, "Ölkəmizi tanıyaq" tur-aksiyalarında iştirak edən məktəblilərin sayı 23 mindən çox olacaq.

Gəncə-Göygöl-Şəmkir istiqaməti üzrə səfər edəcək məktəblilər bu bölgədə genişmiqyaslı quruculuq işləri, maddi-mənəvi irsin qorunması və bərpası istiqamətində həyata keçirilən önəmli sosial layihələr, həmçinin 200 il əvvəl salınan alman məskənləri ilə tanış olacaqlar. Cənubi Qafqaz regionunda alman məskənlərinin salınmasının 200 illiyinin tamam olmasını, bu hadisənin Azərbaycanın multikultural ənənələrə malik çoxəsrlik tolerantlıq məkanı kimi təbliğində böyük əhəmiyyətini nəzərə alan Prezident İlham Əliyev həmin əlamətdar tarixin qeyd olunması ilə bağlı Sərəncam imzalayıb.

Məktəblilər Azərbaycanın ikinci ən böyük şəhəri Gəncənin sosial-iqtisadi və mədəni həyatı ilə yanaşı, Gəncənin yeni xəritəsində əksini tapmış müasir sənaye müəssisələri, turizm və sosial obyektləri, mədəniyyət ocaqları, yaraşıqlı prospektləri, park və xiyabanları ilə də ətraflı tanış olacaqlar. Tur-aksiyanın iştirakçılarının Gəncə şəhərinin tarixi məkanlarına - Cavadxan məqbərəsinə, Cümə məscidinə, Şah Abbas məscidinə, Çökək hamamına, Xan bağına, Qədim Qala divarlarına, "İmamzadə" kompleksinə, Comərd Qəssab türbəsinə, Nizami Gəncəvi məqbərəsinə, həmçinin Gəncə Dövlət Filarmoniyasının yeni binasına və Gəncə Bulvarına, Şəmkir rayonunda "Orta əsr Şəmkir şəhəri"nə, "Abidələr" parkına, Alman kilsəsinə, Şəmkir Aqroparkına, Göygöl rayonunda Alman kirxasına, sonuncu alman Viktor Klaynın ev-muzeyinə, Hacıkənd qəsəbəsinə və Göygöl Milli Parkına ekskursiyaları təşkil ediləcək.

Azərbaycanın iqtisadiyyatında qeyri-neft sektorunun, xüsusilə aqrar sahənin çox böyük payı var. İndi ölkədə qeyri-neft sənayesinin inkişafına xüsusi diqqət yetirilir. Bu inkişafın konturları Strateji Yol xəritələrində əksini tapıb. Bu baxımdan Lənkəran, Masallı və Astara rayonları ölkə iqtisadiyyatında mühüm yerlərdən birini tutur. Bu bölgə sitrus bağları, çay və çəltik plantasiyaları, səfalı məkanları ilə tanınır, tarixi yerləri, özünəməxsus adət-ənənələri ilə seçilir. 2017-ci il sentyabrın 3-də Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsində Prezident İlham Əliyevin verdiyi tapşırıq və tövsiyələr, bu sahələrin dirçəldilməsi ilə əlaqədar imzalanan sərəncamlar ölkə iqtisadiyyatının şaxələndirilməsi baxımından mühüm rol oynayır. Bu sahələrin dirçəldilməsi üçün mövcud potensialın qorunub saxlanılması, həmçinin çəltikçilik, sitrus meyvəçilik, çayçılıq və cins heyvandarlıq təsərrüfatlarının, çəltik və çay emalı müəssisələrinin, sitrus meyvələrinin saxlanılması üçün logistik mərkəzin yaradılması nəzərdə tutulur.

Son illər bölgələrdə müasir mehmanxana və sağlamlıq komplekslərinin istifadəyə verilməsi Azərbaycanın iqtisadi potensialını nümayiş etdirməklə yanaşı, ölkəyə gələn turistlərin sayının artmasına da böyük təkan verir. Lənkəranın Haftoni qəsəbəsində inşası başa çatan Lənkəran İstisu və Sağlamlıq Mərkəzi də bu istiqamətdə həyata keçirilən əsaslı addımlardan biridir. Bu kompleksin inşası regionun turizm imkanlarının artırılması baxımından mühüm əhəmiyyət daşıyır. Bu il oktyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Lənkərana səfəri çərçivəsində İstisu və Sağlamlıq Mərkəzinin təqdimatı olub.

Ölkəmizdə yeni-yeni istirahət guşələri, park və xiyabanların yaradılması və onların vətəndaşların ixtiyarına verilməsi həyata keçirilən sosial-iqtisadi layihələrin tərkib hissələrindən biridir. Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi də bu istiqamətdə həyata keçirilən önəmli layihələrdəndir. Park-bulvar kompleksində rayon sakinlərinin və qonaqların istirahətinin yüksək səviyyədə təşkili, onların asudə vaxtlarının mənalı keçməsi üçün geniş imkanlar yaradılıb. Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 15-də Astarada dənizkənarı park-bulvar kompleksinin ikinci hissəsinin tikintisi çərçivəsində görülən işlərlə tanış olub.

Respublikamızda uğurla həyata keçirilən sənayeləşmə siyasəti bölgələrdə də geniş vüsət alıb. Artıq Neftçala Sənaye Məhəllısi sahibkarların istifadəsinə verilib. Hacıqabul Sənaye Məhəlləsinin bu ilin sonuna qədər istifadəyə verilməsi nəzərdə tutulur. Sabirabad Sənaye Məhəlləsinin tikintisi üçün hazırlıq işləri aparılır. Sentyabrın 18-də Azərbaycan Prezidenti İlham Əliyev Masallı Sənaye Məhəlləsinin açılışında iştirak edib. Masallı Sənaye Məhəlləsində müxtəlif mebel və onların hissələrinin istehsalı üzrə 5 müəssisə qurulub və sahibkarlar tərəfindən bu layihələrin icrasına, ümumilikdə, 3,5 milyon manatdan çox investisiya yatırılıb, 142 yeni iş yeri yaradılıb.

Lənkəran-Masallı-Astara istiqaməti üzrə səfər edəcək məktəblilər bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, tarixi məkanlarla, yeni tikililərlə yaxından tanış ola biləcəklər. Lənkəranda "Qoşa qala" qapılarına, Həzi Aslanovun ev-muzeyinə, Dairəvi qalaya, Mayak binasına, Hirkan Milli Parkına, Xanbulan gölünə, çay plantasiyalarına, sitrus meyvə bağlarına, Astarada şəhər bulvarına, "Yanar bulağ"a və "Astaraçay" çay fabrikinə, Masallıda Tarix-Diyarşünaslıq Muzeyinə, Uşaq İncəsənət Məktəbinə, Dövlət Rəmzləri Muzeyinə, "ASAN Həyat" kompleksinə, Masallı Sənaye Məhəlləsinə və Viləşçay su anbarına ekskursiya şagirdlərin yaddaşında silinməz iz qoyacaq.

Ölkə iqtisadiyyatında önəmli rola malik olan bölgələrimizdən biri də Qəbələ-Şəki-Zaqatala zonasıdır. Bu rayonlarımız da digər bölgələrimiz kimi, həm turizm iqtisadiyyatı, multikulturalizm ənənələri, həm də tarixi məkanları ilə tanınır. Eyni zamanda, bu bölgədə barama, tütün və fındıqçılıq da geniş inkişaf edib. Prezident İlham Əliyevin sədrliyi ilə 2017-ci il avqustun 4-də Qaxda keçirilən barama, tütün və fındıq istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi bu baxımdan ölkəmizin iqtisadi həyatında mühüm hadisəyə çevrilib.

Xüsusi qeyd etmək lazımdır ki, respublikamızda ənənəvi sahələrdən olan baramaçılığın inkişaf etdirilməsi və ipəkçiliyin müasir infrastrukturunun yaradılması istiqamətində həyata keçirilən zəruri tədbirlər ölkəmizin şimal-qərb bölgəsinin ən iri sənaye müəssisələrindən olan "Azəripək" ASC-nin fəaliyyətini əhəmiyyətli dərəcədə canlandırıb. Şəkidə yeni tut bağları salınır, baramaçılığın, ipəkçiliyin ənənələri yenidən bərpa olunur, "Azəripək" kombinatında geniş yenidənqurma işləri həyata keçirilir. Bir sözlə, qədim ipəkçilik sənəti ilə məşhur olan Şəkidə indi bu sahənin inkişafına xüsusi diqqət yetirilir. Şəki həm də öz mətbəxi, adət-ənənələri və tarixi məkanlar ilə fərqlənir.

Məmur-vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında "ASAN xidmət" mərkəzləri önəmli rol oynayır. Belə mərkəzlərdən biri də Şəkidə yaradılıb. Oktyabrın 29-da istifadəyə verilən və açılışında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın da iştirak etdiyi Şəki "ASAN Həyat" kompleksində 11 dövlət orqanı, həmçinin özəl şirkət və müəssisələr tərəfindən, ümumilikdə, 300-dən çox xidmət həyata keçiriləcək.

Ölkəmizin əsas turizm marşrutlarından biri olan Şəkidə "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi də istifadəyə verilib. Mərkəzin məqsədi ölkəmizin, əsasən də Şəki rayonunun tarixi keramika ənənələrinin qorunub saxlanılması və gələcək nəsillərə ötürülməsi, həmçinin müxtəlif çeşidli Azərbaycan gilinin dünyada tanıdılmasıdır. Bura həm də Qafqazda ilk Keramika Mərkəzi kimi tarixə düşüb. Gələcəkdə Mərkəzdə tanınmış əcnəbi sənətkarların iştirakı ilə beynəlxalq tədbirlər, həmçinin müasir avadanlıqlardan istifadə etməklə təlimlər təşkil olunacaq. Mərkəzdə keramika sənətindən əlavə, xalçaçılıq və digər sənətkarlıq sahələri üzrə təlimlərin keçirilməsi də nəzərdə tutulur. Bütün bunlardan məqsəd yeni sənətkarların yetişdirilməsidir.

Dövlətimizin başçısının Şəkiyə səfəri çərçivəsində Şəki-Kiş avtomobil yolu da istifadəyə verilib. Bu yolun inşası iki yaşayış məntəqəsi arasında yük və sərnişin daşınmasının yaxşılaşdırılmasına imkan verəcək, həmçinin yerli və xarici turistlərin Kiş kəndinə və "Marxal" istirahət mərkəzinə gediş-gəlişində mühüm rol oynayacaq.

Bu gün, sözün əsl mənasında, xalqın və dövlətin maraqlarına uyğun hərtərəfli müstəqil siyasət həyata keçirən, sürətli və davamlı inkişaf yolu ilə uğurla addımlayan suveren Azərbaycanın üzərində əzəmətlə dalğalanan üçrəngli bayrağımız hər bir vətəndaşımızın qəlbində qürur və fərəh hissi doğurur. Bölgələrimizdə, o cümlədən Şəkidə Bayraq Muzeyinin yaradılması bunun bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda tərbiyə olunmasına mühüm töhfə verir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 29-da Şəkidə Bayraq Muzeyinin açılışında da iştirak ediblər.

Azərbaycan artıq dünya miqyasında idman ölkəsi kimi tanınır. Nüfuzlu beynəlxalq turnirlərdə, idman yarışlarında, dünya və Avropa çempionatlarında, eləcə də olimpiadalarda yüksək yerlər tutan azərbaycanlı idmançılar öz nailiyyətləri ilə bunu təsdiqləyiblər. Ölkəmizin uğurla ev sahibliyi etdiyi nüfuzlu idman tədbirləri sırasında 2015-ci ildə Bakıda və Mingəçevirdə keçirilən I Avropa Oyunlarını, 2017-ci ildə paytaxtımızda təşkil olunan IV İslam Həmrəyliyi Oyunlarını, eləcə də Formula 1 yarışlarını misal göstərmək olar. Bütün bunlara Azərbaycanda idmana göstərilən dövlət qayğısı sayəsində nail olunub. Bu istiqamətdə həyata keçirilən siyasət Azərbaycanda idmanın populyarlaşdırılması, yeniyetmə və gənclər arasında təbliği üzərində qurulub. Eyni zamanda, ölkəmiz üçün yeni olan idman növləri də gənclər arasında yayılmaqdadır. Qəbələdəki "Tufandağ" Xizəkçilik Kompleksi, Qubadakı qolf meydançası, "Şahdağ" turizm mərkəzindəki xizək məktəbi həm turizmin inkişafı, həm də yeni idman növlərinin geniş yayılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Bu istiqamət üzrə səfər edəcək şagirdlər müasir turizm infrastrukturuna malik olan Qəbələdə "Tufandağ" Xizəkçilik Kompleksinə, qədimliyi ilə fərqlənən Çuxur Qəbələ Tarix və Mədəniyyət Qoruğuna, udilərin yaşadığı Nic kəndinə baş çəkəcəklər. Zəngin Şəki mətbəxi, Dövlət Tarix-Memarlıq Qoruğu, Şəki Xan sarayı, Yuxarı Karvansaray, Aşağı Karvansaray, Cümə məscidi və Kiş kəndindəki qədim Alban məbədi, "Marxal" müalicəvi istirahət kompleksi, Heydər Əliyev Mərkəzi, Bayraq Muzeyi, "ABAD" Keramika və Tətbiqi Sənət Mərkəzi tur-aksiya iştirakçılarında zəngin təəssürat oyadacaq. Məktəblilər vaxtilə gülçülük, tütünçülük və fındıq bağları ilə məşhur olan Zaqatalaya da gedəcəklər. Sadalanan ənənəvi və gəlirli aqrar sahələrin inkişaf etdirilməsi rayonun qarşısında duran əsas hədəflərdəndir. Şagirdlər Heydər Əliyev Mərkəzini ziyarət edəcək, müasir fındıq emalı müəssisəsi, tütünçülük təsərrüfatları ilə tanış olacaq, Tarix-Mədəniyyət Qoruğuna baş çəkəcək, Dədə Qorqud Meydanını gəzəcəklər. Qədim və müasir Zaqatala haqqında məlumatlar tur-aksiya iştirakçılarının böyük marağına səbəb olacaq.

Quba-Qusar-Xaçmaz bölgəsində də son illər aqrar sahənin, emal müəssisələrinin, xüsusən də turizm sənayesinin inkişafı istiqamətində çox böyük işlər görülüb. Bu bölgə həm də tarixi məkanları ilə tanınır. Aksiya iştirakçıları bütün bunlar barədə məlumat alacaq, eyni zamanda, Quba Soyqırımı Memorial Kompleksində erməni vəhşiliyinin əyani şahidi olacaqlar. Azərbaycanın bu dilbər guşəsi multikultural ənənələri ilə seçilir. Bölgədə müxtəlif xalqların nümayəndələri əsrlərdən bəri dinc şəraitdə yaşayır, həm öz mədəniyyətlərini, həm də Azərbaycan xalqının mədəniyyətini zənginləşdirirlər. Yəhudilərin sıx məskunlaşdığı Qırmızı qəsəbəyə, Quba xalçaçılıq emalatxanasına, Cümə məscidinə, Tağlı körpüyə, Xınalıq yolundakı şəlaləyə, qolf meydançasına, "ABAD Factory" İstehsalat Kompleksinə ekskursiyalar məktəblilərin yaddaşında silinməz izlər qoyacaq. Qubada fəaliyyətə başlayan "ASAN Həyat" kompleksi barədə məlumatlar da tur-aksiya iştirakçılarının marağına səbəb olacaq.

Azərbaycanın şimal bölgəsi iqtisadiyyatı ilə bərabər, turizmin inkişafı üçün də cəlbedici məkandır. Son illərdə bu bölgədə turizm infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılıb. Qusar rayonunda "Şahdağ" turizm mərkəzinə gələn turistlərin sayı ilbəil artır. Bu mərkəzi Azərbaycanın turizm brendi hesab etmək olar. Şahdağ təbiətin bütün fəsillərində öz gözəlliyi ilə fərqlənir. Məktəblilər bu mərkəzə səfərlə yanaşı, Qusar şəhərinin görməli yerlərini gəzəcək, Həzrə kəndindəki "Şeyx Cüneyd" türbəsi ilə tanış olacaqlar. Bu istiqamətdə tur-aksiyanın növbəti məkanı Xaçmaz rayonu olacaq. Xaçmaz şəhərindəki "Şəxsiyyətlər muzeyi"nə, Çənlibel parkına, xalça muzeyinə ekskursiyalar, rayonun sosial-iqtisadi inkişafı ilə bağlı görülən işlər məktəblilərdə böyük maraq doğuracaq.

Şagirdlərə, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi, o cümlədən 1994-cü il mayın 12-dən qüvvədə olan atəşkəsə məhəl qoymayan Ermənistan silahlı qüvvələrinin mövqelərimizə daim atəş açması, dinc əhalini, yaşayış yerlərini gülləboran etməsi barədə ətraflı məlumat veriləcək. Belə ki, düşmən növbəti dəfə təxribata əl ataraq 2016-cı il aprelin 2-də yenidən mövqelərimizə hücuma keçib, bir neçə dinc sakini qətlə yetirib, Azərbaycan Ordusu bu hücumun qarşısını almaq üçün əks-hücumla bir sıra məntəqələri və yüksəklikləri azad edib. Lələtəpə yüksəkliyinin azad olunması ilə Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə yenidən həyat qayıtdı. Prezident İlham Əliyevin böyük diqqət və qayğısı nəticəsində kənd qısa müddətdə yenidən quruldu, məcburi köçkünlər öz doğma yurdlarına döndülər. Aprel müharibəsi bir daha sübut etdi ki, Azərbaycan əsgəri, xalqımız nəinki müharibəyə tam hazırdır, hətta onu qısa vaxtda qalibiyyətlə başa çatdırmaq imkanındadır. Bu barədə məlumatlar məktəblilərin vətənpərvərlik ruhunu yüksəldəcək.

Ekskursiya zamanı məktəblilər Azərbaycanın təşəbbüsü ilə reallaşan bir sıra qlobal layihələr barədə də məlumatlandırılacaqlar. Diqqətə çatdırılacaq ki, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması Azərbaycanın yeni neft strategiyasının başlanğıcı hesab olunursa, bu strategiyanı uğurla davam etdirən Prezident İlham Əliyevin iştirakı ilə 2017-ci il sentyabrın 14-də Bakıda Heydər Əliyev Mərkəzində imzalanan "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının birgə işlənməsi müddətinin 2050-ci ilədək uzadılmasına dair saziş isə "Yeni əsrin müqaviləsi" adlandırılır. İmzalanma mərasimində bir sıra nüfuzlu dövlətlərin, dünyanın nəhəng neft şirkətlərinin rəhbər şəxslərinin iştirakı buna sübutdur. Beləliklə, yeni müqaviləyə görə, AÇG-dən 2050-ci ilədək çıxarılacaq neftdən gələn gəlirlər ölkəmizin sosial-iqtisadi inkişafını daha da sürətləndirəcək. Yeni müqavilə həm də xarici tərəfdaş şirkətlərin Azərbaycan iqtisadiyyatına olan inamını göstərir.

Son illər Azərbaycanda nəqliyyat infrastrukturuna böyük investisiya yatırılır. 2017-ci il oktyabrın 30-da açılışı olan və qitələri birləşdirən, dəmir İpək Yolu adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu ilə Londondan Pekinədək qatarlar hərəkət edəcək, yük və sərnişin daşınacaq. Bu layihənin təkcə iqtisadi deyil, həm də geostrateji əhəmiyyəti var.

Məktəblilərə mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilən Cənub Qaz Dəhlizi, iyunun 12-də Türkiyədə TANAP qaz kəmərinin istifadəyə verilməsi, sentyabrın 26-da "Azerspace-2" peykinin orbitə buraxılması, həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə keçirilən tədbirlər, iyunun 26-da Silahlı Qüvvələrimizin yaradılmasının, sentyabrın 15-də Bakı şəhərinin işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradlar barədə də məlumatlar veriləcək.

Aksiyanın bu mərhələsində məktəblilərin asudə vaxtlarında "Nə? Harada? Nə vaxt?" intellektual oyunları keçiriləcək, qaliblərə xatirə hədiyyələri veriləcək, onlar üçün teatr tamaşaları və konsert proqramları təşkil ediləcək.

**AZƏRTAC**

# AZƏRBAYCAN ƏDLİYYƏSİNİN ŞƏRƏFLİ YOLU



**Müstəqil dövlətimizin ədliyyə tarixində ən şərəfli anlar 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması ilə başlanır. 1918-ci il may ayının 28-də Azərbaycan Demokratik Respublikasının elan edildiyi gün xüsusi əhəmiyyət verilərək Ədliyyə Nazirliyi yaradılmışdır. Nazirlik öz fəaliyyətinə ədliyyə strukturlarının, məhkəmələrin və istintaq sahələrinin bərpası ilə başlamış, məhkəmə aparatları bərpa edilmiş, binaları qaydaya salınmış, hüquq ədəbiyyatı kitabxanası yaradılaraq hüquq kursları təşkil edilmişdir. Eyni zamanda ədliyyə orqanlarının və məhkəmələrin fəaliyyəti ilə bağlı bir sıra qərarlar qəbul edilmiş, o cümlədən 1918-ci il noyabr ayının 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsi, noyabrın 22-də isə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Cəzaçəkmə yerləri ilə aparılan işin ədalət mühakiməsinin həyata keçirilməsində əhəmiyyəti nəzərə alınaraq hökumətin 1919-cu il 11 avqust qərarı ilə əvvəllər Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar Ədliyyə Nazirliyinin tabeliyinə verilmiş, nazirliyin təşəbbüsü ilə "İstintaq hissəsinin quruluşu və gücləndirilməsi haqqında", "Məhkəmə idarəsi sahəsində vəzifələrə namizədlər haqqında", "Azərbaycan andlı iclasçıları məhkəməsinin təsis edilməsi haqqında", "Ümumi amnistiya haqqında" və digər qanunlar parlamentin müzakirəsinə çıxarılmışdır.**

Azərbaycan Demokratik Respublikası 1920-ci il aprel ayının 27-28-də Rusiyanın XI qızıl ordusu tərəfindən işğal edildikdən sonra inqilab komitəsinin 13 may 1920-ci il tarixli qərarı ilə Ədliyyə Nazirliyi ləğv edilmiş, Xalq Ədliyyə Komissarlığı yaradılaraq onun səlahiyyətlərinə qanunvericilik layihələrinin hazırlanması, məhkəmə işçilərinin seçilməsi, təlimatlandırılması və onlara inzibati rəhbərlik edilməsi, qanunçuluğa ali nəzarət və istintaqın aparılması daxil edilmişdir. Lakin 1930-cu ildə bu komissarlıq ləğv edilərək onun funksiyaları prokurorluq, Ali Məhkəmə, Mərkəzi İcraiyyə Komitəsinə və digər orqanlara verilmişdir.

1933-cü ildə məhkəmələrin, prokurorluğun, istintaqın birləşdirilməsi, vahid məhkəmə siyasətinin həyata keçirilməsi, bütün hakimiyyət orqanlarının, təsərrüfat müəssisələrinin, ictimai birliklərin və fiziki şəxslərin hərəkətlərinin qanuniliyini müşahidə etmək məqsədilə Xalq Ədliyyə Komissarlığı yenidən təşkil edilmiş, onun səlahiyyətlərinə qanun layihələrinin hazırlanması, qanunların şərhi, məhkəmə kadrlarının hazırlanması, əhaliyə hüquqi yardımın təşkili, penitensiar sisteminin idarə olunması, Ali Məhkəməyə, prokurorluğa və vəkillərə rəhbərlik etmək funksiyaları daxil edilmişdir.

1937-ci ildə Xalq Ədliyyə Komissarlığının yeni Əsasnaməsi təsdiq edilmiş, onun səlahiyyətləri məhdudlaşdırılmış, əsas fəaliyyət sahəsi məhkəmə və notariat orqanların işinin təşkili və onlara rəhbərlik etməkdən ibarət olmuşdur. 1959-cu ildə Ədliyyə Komissarlığı yenidən ləğv edilmiş, məhkəmə orqanlarının fəaliyyətinə rəhbərlik və nəzarət, məhkəmə statistikasının aparılması Ali Məhkəməyə həvalə edilmiş, Nazirlər Soveti yanında Hüquq Komissiyası təşkil olunmuş, Ədliyyə Komissarlığının səlahiyyətləri ayrı-ayrı dövlət orqanları arasında bölüşdürülmüşdür.

Ədliyyə Nazirliyinin yenidən yaradılması ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Belə ki, 27 okytabr 1970-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Ədliyyə Nazirliyi təsis edildi və bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlanmış oldu.

Azərbaycan yenidən dövlət müstəqilliyi əldə etdikdən və ümummilli liderimiz ölkə rəhbərliyinə gəldikdən sonra ədliyyə orqanlarının işinin müasir tələblər səviyyəsinə qaldırılması üçün əsaslı tədbirlər həyata keçirildi. Ədliyyə Nazirliyinin cəmiyyətdə rolu və əhəmiyyəti artdı, səlahiyyət dairəsi genişləndi. Məhz ümummilli liderimiz Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 22 noyabr Ədliyyə İşçilərinin Peşə Bayramı Günü kimi müəyyən edilmişdir.

Ulu öndərin siyasi kursunun ən layiqli davamçısı, möhtərəm Prezidentimiz İlham Əliyevin dövlət başçısı seçilməsindən sonra isə Azərbaycan ədliyyəsi ölkədə geniş vüsət alan məhkəmə-hüquq islahatları çərçivəsində daha da müasirləşərək yeni-yeni nailiyyətlərə imza atmışdır.

Bu gün Azərbaycan ədliyyəsi müasirləşmə və davamlı inkişaf yolundadır. Ölkədə həyata keçirilən islahatlar Azərbaycan ədliyyəsinin fəaliyyətində əsaslı dönüş yaratmış, onun dövlətin hüquq sistemindəki layiqli mövqeyini təmin etmişdir. Belə ki, hazırda cəmiyyətdə çox həssas yanaşılan məhkəmə qərarlarının icrasının təşkili nazirliyin daim diqqət mərkəzində saxlanılır. Bu sahədə iş həcminin xeyli artması nəzərə alınaraq məhkəmə icraçıları xidmətinin yerli qurumlarına əlavə ştatlar ayrılmışdır. Onların maddi-texniki bazası isə daim yaxşılaşdırılır, əməkdaşların peşəkarlıq səviyyəsinin artırılmasına ciddi fikir verilir, fəaliyyətində nöqsanlara yol vermiş bir çox işçilər intizam məsuliyyətinə cəlb edilmiş, o cümlədən tutduqları vəzifədən azad olunmuşlar.

Ədliyyə sisteminin inkişafında və beynəlxalq hüquqi yardımın səmərəliliyinin artırılmasında xarici əlaqələrin rolu nəzərə alınır. Nazirlik Slovakiya, Almaniya, Fransa, İtaliya, Rumıniya, Bolqarıstan, Çin, İran və digər ölkələrin ədliyyə nazirlikləri ilə sazişlər bağlamışdır. Nazirlik hazırda Azərbaycan dövlətinin qoşulduğu beynəlxalq Konvensiyalar üzrə mərkəzi və əlaqələndirici orqan qismində müəyyən edilmişdir. Ədliyyə Nazirliyi ölkəmizin iştirakçısı olduğu konvensiyalar, habelə BMT-nin İnsan Hüquqları Şurasının Universal Dövri İcmal mexanizmi üzrə milli məruzələrin hazırlanmasında və təqdimatında fəal iştirak etmişdir. Avropa Komissiyası ilə 2009-2011-ci illər üzrə "Azərbaycanda ədliyyə islahatlarına dəstək" Proqramının həyata keçirilməsi üçün razılıq əldə olunmuş və onun icrası üzrə zəruri işlər görülmüşdür. Beynəlxalq hüquqi yardımın göstərilməsi ilə əlaqədar daxil olmuş sənədlər üzrə minlərlə rəy və digər məlumatlar hazırlanıb aidiyyəti üzrə göndərilmişdir. İnsan hüquqlarının müdafiəsi üzrə Azərbaycan Respublikasının Milli Fəaliyyət Planının, habelə Avropa Şurası və Avropa Komissiyasının, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsinin (CPT) tövsiyələrinə, Avropa Penitensiar qaydalarının tələblərinə uyğun olaraq penitensiar müəssisələrdə məhkumların hüquqlarının daha etibarlı təmin edilməsi, saxlanma şəraitinin yaxşılaşdırılması, onların əməyə cəlb olunması üzrə kompleks tədbirlər görülmüş, irihəcmli infrastruktur layihələr üzrə işlər müvəffəqiyyətlə davam etdirilmişdir və bu proses daim yeni mərhələyə qədəm qoyur.

Qəbul edilmiş Dövlət Proqramına uyğun olaraq ən yüksək tələblərə cavab verən Bakı istintaq təcridxanasında insan hüquqlarının qorunmasına daim xüsusi diqqət yetirilir və dövlətimizin başçısı kompleksə baş çəkərək yaradılmış şəraitlə tanış olmuşdur.

Nazirliyin tibb xidməti beynəlxalq standartlar səviyyəsindədir, ixtisaslı mütəxəssislərlə komplektləşdirilmiş, zəruri müasir avadanlıqlarla və dərman preparatları ilə təmin olunmuşdur.

Dövlətin bələdiyyələrin fəaliyyətinə nəzarət etməsinə dair konstitusion müddəalara, "Dövlət və bələdiyyə əmlakının və vəsaitlərinin idarə olunması sahəsində korrupsiya ilə əlaqədar hüquqpozmalara qarşı mübarizənin gücləndirilməsi haqqında" ölkə başçısının 22.06.2009-cu il tarixli Fərmanına əsasən bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəliliyi artırılmışdır.

Ədalətli mühakimədə əsas olan məhkəmə ekspertizalarının keyfiyyətinin yüksəldilməsinə, bu işdə operativliyin və dəqiqliyin təmin edilməsinə, habelə elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılmasına da xüsusi önəm verilir. Nazirliyin Məhkəmə ekspertizası mərkəzi üçün dünyanın aparıcı şirkətlərinin istehsal etdikləri ən müasir kriminalistik avadanlıq alınmış, tədqiqat laboratoriyaları yeniləşdirilmişdir.

Dövlət Proqramının əsas və vacib istiqamətlərindən biri də ədliyyə sistemində kadr hazırlığı və peşəkarlıq səviyyəsini təmin etməkdir. Bu məqsədlə nazirlikdə yaradılmış Müsabiqə Komissiyası ədliyyə orqanlarına şəffaf prosedurlarla, müsabiqə və müsahibə yolu ilə yüksək nəzəri hazırlığa malik hüquqşünasların qəbulunu həyata keçirir.

Ötən dövrdə ədliyyə orqanlarında icra intizamının möhkəmləndirilməsi, işçilərin məsuliyyət hissinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüş, qanun pozuntuları və nöqsanlara yol verənlər intizam məsuliyyətinə cəlb edilmiş, bir çoxları işdən azad edilmişlər. Nazirliyin Ədliyyə Akademiyasındakı müvafiq fakültələr yaradılmış və kafedralarda ilk dəfə ədliyyə, prokurorluq orqanlarına qulluğa qəbul edilən, habelə vəkilliyə namizədlərin peşə fəaliyyətinə buraxılmaları məqsədilə icbari təlimin, eləcə də hakim vəzifəsinə namizədlərin ilkin uzunmüddətli tədrisinin və hakimlərin davamlı tədrisinin keçirilməsi, həmçinin ali hüquq təhsili əsasında müxtəlif kateqoriyadan olan işçilərin peşə hazırlığının və ixtisasının artırılması prosesi davam edir. Əminliklə demək olar ki, dövlətimizin başçısı cənab İlham Əliyev ulu öndərin möhkəm təməl üzərində əsasını qoyduğu məhkəmə-hüquq islahatlarını yeni dövrün tələbləri səviyyəsində inamla həyata keçirir.

**Faiq RƏHMANOV,**
**müstəntiq, kiçik ədliyyə müşaviri.**

# Azərbaycan ədliyyəsi yeni inkişaf mərhələsində

**2018-ci il Azərbaycan xalqının tarixinə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi kimi daxil oldu. Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqının XX əsrin 2-ci onilliyində öz dövlətçiliyini bərpa etməsi tariximizin şanlı səhifələrindəndir. Milli Ordunun, Daxili İşlər orqanlarının, Azərbaycan Prokurorluğunun yaranması Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrə aiddir.**

Bir çox dövlət təsisatları kimi, Ədliyyə Nazirliyinin də yaranması Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu 1918-1920-ci illərə təsadüf edir. Bir əsrlik inkişaf yolu keçən Azərbaycan Ədliyyəsinin şanlı tarixi 1918-ci ilin may ayının 28-də - Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlanmış, Xəlil bəy Xasməmmədov ilk ədliyyə naziri təyin olunmuşdur. Həmin ilin noyabr ayının 22-də nazirliyin əsasnaməsi təsdiq edilmiş, onun funksiyası və səlahiyyətləri müəyyən edilmişdir.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 11 noyabr 2000-ci il tarixli sərəncamı ilə 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Ədliyyə Nazirliyinin Əsasnaməsinin təsdiq edildiyi gün - 22 noyabr Ədliyyə işçilərinin peşə bayramı günü kimi qəbul edilib.

Fəaliyyəti unudulmaz hadisələrlə yadda qalan Ədliyyə Nazirliyinin həm də mürəkkəb və çətin dövrləri olmuşdur. 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti bolşeviklər tərəfindən devrildikdən, Azərbaycan işğal edildikdən sonra milli dövlətçiliyin əsas atributlarından olan Ədliyyə Nazirliyi ləğv edilərək əvəzinə Xalq Ədliyyə Komissarlığı yaradılmış, səlahiyyətləri məhdudlaşdırılmış, müxtəlif dövrlərdə iki dəfə ləğv olunaraq yenidən təsis edilmişdir. Nazirliyin funksiyaları ayrı-ayrı vaxtlarda prokurorluq, məhkəmə orqanlarına verilmişdir. Ədliyyə sisteminin stabil funksiya və struktura malik olmaması onun inkişafına əngəllər törətmişdir.

Ədliyyə Nazirliyinin yenidən və əsaslı surətdə təsis edilməsi, ədliyyə işinin təkmilləşdirilməsi 1970-ci ilə - ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir.

Azərbaycan ədliyyə sisteminin formalaşması və dərin, köklü islahatların aparılması, ədliyyə orqanlarının fəaliyyətinin beynəlxalq ədliyyə sisteminin ən mütərəqqi tələbləri səviyyəsində yenidən qurularaq daha da təkmilləşdirilməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Onun hakimiyyətdə olduğu dövrdə ədliyyə sahəsində bir sıra qərarlar verilmiş, bu da Azərbaycan ədliyyəsinin inkişafına güclü təkan vermişdir.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan Ədliyyəsinin inkişafında əsaslı dönüş mərhələsi başladı. Onun ölkə Prezidenti olduğu 1993-2003-cü illəri Azərbaycan ədliyyəsinin intibah dövrü adlandırmaq olar. Bu illərdə Azərbaycan ədliyyəsi müstəqil, suveren dövlətin bir strukturu kimi təşkilati baxımdan daha da təkmilləşdi.

Bu dövrdə Azərbaycan ədliyyə sisteminin fəaliyyəti müstəqil dövlətin qanunvericiliyi, müstəqil Azərbaycanın yeni qəbul edilən Konstitusiyasının (Əsas Qanun) tələbləri səviyyəsində quruldu.

Məhkəmələrin müstəqilliyi təmin olundu, fəaliyyətinə müdaxilələrin qarşısının alınması üçün Nazirlikdə Məhkəmə Orqanları İdarəsi ləğv olundu. Bu illərdə məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidmətləri yaradıldı. 18 iyun 1998-ci il tarixli sərəncamla ilk dəfə olaraq insan hüquqları üzrə müvəkkil (Ombudsman) institutunun təsis edilməsi, əfv sərəncamları və amnistiya aktlarının qəbulu, xüsusilə də şərqdə, ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğv edilməsi kimi mühüm işlər ulu öndərin adı ilə bağlıdır. 2000-ci ildə Azərbaycada üçpilləli məhkəmə sisteminin yaradılması da ümummilli liderin fəaliyyətinin nəticəsidir.

Məhz Heydər Əliyevin humanist siyasətinin nəticəsində müstəqil Azərbaycan Respublikasında yeni bir ənənənin əsası qoyuldu. Onun imzaladığı əfv sərəncamları və amnistiya aktları sayəsində məhkum edilmiş bir sıra şəxslər azadlığa qovuşdu, cəzaları yüngülləşdirildi. Bu isə Azərbaycan cəmiyyətində böyük rəğbət hissi ilə qarşılandı. Minlərlə insanın azadlığa qovuşması, cəzasının yüngülləşdirilməsi onların mənsub olduqları ailələrin sevincinə səbəb olmaqla yanaşı, həm də onların öz səhvlərini başa düşmələrinə, yaşadıqları həyat tərzini saf-çürük etmələrinə, ömürlərinin qalan hissəsini ləyaqətlə, qanunçuluğun tələblərinə uyğun olaraq yenidən qurmalarına şərait yaratdı.

Ümummilli lider Heydər Əliyevin ədliyyə sahəsində aparmış olduğu islahatlar, bu sahəyə diqqət və qayğı Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev görülən işlərin miqyası və əhəmiyyəti barədə demişdir: **"Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində böyük işlər görülüb, böyük nailiyyətlər var. Məhkəmə sismetində şəffaflıq və ədalətin tam bərqərar olması ümumi demokratik inkişafımıza müsbət təsir göstərir".**

Azərbaycan ədliyyə sistemi bu gün öz işini müasir tələblər səviyyəsində qurur, daha böyük uğurlara imza atır, dövlət səviyyəsində aparılan islahatlar insan hüquq və azadlıqlarının təmin edilməsinə, qanunun aliliyinin qorunmasına xidmət edir. Məşhur bir deyim var: "Qanun şahdır, şah qanun deyil". Bu gün Azərbaycanda bu məşhur kəlamda olduğu kimi, vəzifəsindən, sosial mənsubiyyətindən, dinindən, irqindən, millətindən asılı olmayaraq, hamı qanun qarşısında bərabərdir. Hamı öz həyatında, fəaliyyətində qanunların aliliyini, dönməzliyini və cəmiyyətdə ədalət prinsiplərinin qorunmasını aşkar hiss edir.

Azərbaycanda aparılan demokratik, hüquqi islahatların və uğurlu xarici siyasətin nəticəsi olaraq, Ədliyyə Nazirliyi də hüquqi sahədə müxtəlif ölkələr və bir çox beynəlxalq təşkilatlarla uğurlu və səmərəli əməkdaşlığı daha da genişləndirir, beynəlxalq hüquqi təcrübənin öyrənilməsi məqsədilə mühüm tədbirlər həyata keçirilir.

Bu gün Ədliyyə Nazirliyi yanında Hüquq Tədris Mərkəzinin bazasında yaradılmış Ədliyyə Akademiyası peşəkar, yüksək intellektli, dərin, hərtərəfli hüquqi biliyə malik ixtisaslı ədliyyə kadrlarının yetişdirilməsi, peşə səviyyəsinin yüksəldilməsi istiqamətində mühüm işlər görür.

Azərbaycan ədliyyə sismetində fəaliyyətə başlayan hər bir gənc kadr bilir ki, ədliyyə işçisi dərin bilikli, peşəkar hüquqşünas olmaqla yanaşı, həm də milli mənəviyyata malik vətəndaş olmalıdır.

Bir əsrlik yaranma tarixini qeyd edən ədliyyə sistemi işçiləri ulu öndər Heydər Əliyevin ədliyyə sahəsində əsasını qoyduğu və ədliyyə işçilərindən tələb etdiyi demokratik, humanist və hüquqi dəyərləri öz fəaliyyətlərində daim həyata keçirmək əzmindədir.

**Könül MƏMMƏDOVA,**
**Ədliyyə Nazirliyi Göyçay Rayon Qeydiyyat şöbəsinin rəisi, kiçik ədliyyə müşaviri.**

# Cəzaçəkmə müəssisələrində istehsal olunan məhsullardan və məhkumların əl işlərindən ibarət sərgi

## *Sərgi Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunmuşdur*

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Sərəncamından irəli gələn tələblərə əsasən penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi prosesinin daha da genişləndirilməsi, azadlıqdan məhrum edilmiş şəxslərin ictimai faydalı əməyə cəlb olunması məqsədilə cəzaçəkmə müəssisələrində mövcud istehsal sahələrinin bərpa edilməsi və yeni sahələrin yaradılması imkanlarının araşdırılması istiqamətində tədbirlər davam etdirilir.

Noyabrın 12-də Ədliyyə Nazirliyinin Penitensiar xidmətin 6 saylı cəzaçəkmə müəssisəsində Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş cəzaçəkmə müəssisələrində istehsal edilmiş məhsullardan və məhkumların əl işlərindən ibarət sərgi məhz bu Sərəncamda nəzərdə tutulmuş tədbirlərin davamıdır.




Dövlət qurumlarının və qeyri-hökumət təşkilatlarının nümayəndələri, Ədliyyə Nazirliyinin məsul əməkdaşlarının, Penitensiar xidmətin cəzaçəkmə müəssisələrinin və istintaq təcridxanalarının rəislərinin iştirakı ilə keçirilən sərgidə nümayiş olunan məhkumların əl işləri ziyarətçilər tərəfindən böyük maraqla qarşılanmışdır. Sərgidə cəzaçəkmə müəssisələrində daha çox məhkumu ictimai faydalı əməyə cəlb etmək, istehsalat sahələrini genişləndirmək, eyni zamanda, cəza çəkənləri müxtəlif peşə və məşğuliyyət sahələrinə yönəltmək, onlarda əmək vərdişləri formalaşdırmaq, mədəniyyət və incəsənətə maraq oyatmaq üçün Ədliyyə Nazirliyinin Penitensiar xidməti tərəfindən mühüm işlər həyata keçirildiyi vurğulanmışdır.

Məhkumların ictimai faydalı əməyə cəlb edilməsi azadlığa çıxdıqdan sonra onların cəmiyyətə daha tez adaptasiya olunmasına zəmin yaradır. Təsadüfi deyil ki, məhkumlar üçün həm maddi, həm də mənəvi-psixoloji əhəmiyyət daşıyan ictimai faydalı əməyin təşkili məqsədilə mövcud istehsalat sahələrinin bərpası və yeni iş yerlərinin yaradılması prosesi son vaxtlar daha da sürətlənmişdir. Bu məqsədlə həmin müəssisələrdə yeni istehsalat sahələrinin yaradılmasına və bu işə sahibkarların cəlb edilməsinə dair zəruri tədbirlər həyata keçirilmişdir.

Penitensiar xidmətin 4 saylı qadın cəzaçəkmə müəssisəsində toxuculuq, tikiş və xalçaçılıq üzrə istehsalat sahələrini inkişaf etdirmək üçün yeni hana dəzgahlarının quraşdırılması və işləyən məhkumların sayının artırılması buna bariz nümunədir.

Təqdirəlayiq haldır ki, tərbiyə müəssisəsində cəzaçəkən yeniyetmələri yüngül əməyə cəlb etmək məqsədilə Penitensiar xidmətin təşəbbüsü və Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dəstəyilə müəssisədə heykəltəraşlıq dərslərinin tədrisinə başlanılmışdır.

Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə təşkil olunmuş cəzaçəkmə müəssisələrində istehsal edilmiş məhsullardan ibarət sərgi istedadlı məhkumların ərsəyə gətirdikləri əl işlərinə olan marağın daha da artmasında, eyni zamanda cəzaçəkmə müəssisələrindəki istehsalat sahələrinin bərpası və yeni iş yerlərinin yaradılması prosesinə yerli və xarici sahibkarları cəlb edilməsində mühüm rol oynayacaqdır. Penitensiar xidmət tərəfindən bu istiqamətdə lazımi tədbirlərin gələcəkdə də davam etdirilməsi, müxtəlif sahələr üzrə fəaliyyət göstərən dövlət qurumları və özəl təşkilatlarla əməkdaşlıq çərçivəsində yeni layihələrin həyata keçirilməsi nəzərdə tutulur.

Sərgi göz oxşayır. Bir-birindən rəngarəng əl işləri sərgi iştirakçılarında böyük maraq doğurur. 6 il azadlıqdan məhrum olunmuş Zaur Bağırov söhbət zamanı deyir ki, biz məhkumlara çox gözəl şərait yaradılıb. Neft buruğu, saat, avtomobillər bir ay ərzində ərsəyə gəlmiş əl işləridir. Z.Bağırov israrla bildirir ki, azadlığa çıxdıqdan sonra, yəqin ki, xarratlıqla məşğul olacağam.

Sərgidə nümayiş olunan 4 saylı cəzaçəkmə müəssisəsinin qadın məhkumlarının əl işləri də çoxçeşidlidir. Bu cəzaçəkmə müəssisəsinin daxilində 18 saylı Bakı Tikinti Peşə Liseyi fəaliyyət göstərir. Aşpazlıq, xalçaçılıq, mühasibatlıq qadın məhkumların ən çox seçdiyi peşələrdir. Toxuduqları "7 gözəl" xovlu xalçası, yun corablar və papaqlar qadın məhkumların yüksək zövqə malik olmalarından xəbər verir. Sahibkar Eldar Hacıyev bildirir ki, xalçalar mənim sifarişim əsasında toxunur. Bunun müqabilində də əməkhaqları ödənilir. Hazırda 45 məhkum qadın toxuculuq işinə cəlb olunub.

Milli QHT Forumunun prezidenti, Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmətə İctimai Nəzarət üzrə Komitənin üzvü Rauf Zeyni sərgi haqqında fikirlərini bizimlə bölüşür:

—Biz beynəlxalq tədbirlərdə fəal iştirak edirik. Slovakiyanın Bratislava şəhərində cəzaçəkmə müəssisəsində təşkil olunmuş bu cür sərgidə iştirak etmişik. Bu gün bizim cəzaçəkmə müəssisəsində belə bir sərginin təşkilini alqışlayırıq. Belə ki, məhkumlar hər gününü səmərəli keçirir, düzəltdiyi hər hansı bir əl işi müqabilində ona əməkhaqqı ödənilir, eyni zamanda, ailəsinə də maddi dəstək durur.

"Konstitusiya" Araşdırma Fondunun rəhbəri, Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmətə Nəzarət üzrə İctimai Komitənin üzvü Əliməmməd Nuriyev:

—Artıq bir neçə ildir ki, cəzaçəkmə müəssisəsində əl işlərindən ibarət sərgidə iştirak edirəm. Özü də ildən-ilə təkmilləşdirilmiş bir sərgidə. Bu olduqca böyük əhəmiyyətə malikdir. Təsəvvür edin ki, məhkumlar asudə vaxtlarını necə səmərəli keçirirlər. Güman edirəm ki, məhkumlar azadlığa çıxdıqdan sonra iş tapmaq problemi ilə qarşılaşmayacaqlar.

Sərgidə Milli Məclisin üzvləri Elşad Həsənov, Aydın Hüseynov, Rüstəm Xəlilov, Malik Həsənov, Çingiz Qənizadə iştirak edirdilər, millət vəkilləri məhkumların əl işləri ilə yaxından tanış oldular.

**M.MİRZƏ,**
**"Respublika".**



# İNCƏSƏNƏTDƏ MƏNƏVİ GÖZƏLLİK AXTARIŞI



Həyat bütün zamanlarda - fərəhli, sevincli anlarda, ağrılı, çətin məqamlarda, ümidli, ümidsiz çağlarda belə gözəldir, cazibədardır və mənalıdır. Onu insanlara bunca sevdirən amillər o qədərdi ki! Mənə görə, hər birinin də mərkəzində düşüncəyə, ruha rahatlıq gətirən incə, zərif duyğular, bəzən dağ şəlaləsitək coşan, bəzən də həzin payız çiçəkləri hüsnündə olan xəfif sevgilər, istəklər, bir qədər də qəmə, nisgilə rübənd salmış kədər dayanır. Bu sevginin, vurğunluğun və məyusluğun özü də fərdi xarakter daşıyır. Bunlar müxtəlif olan, bir-birinə bənzəməyən talelərdə özünü əks etdirir. Mən, sən, o - bütün insanlar bu təzadlı həyata niyə bu qədər məftunuq? Özünü bizə sevdirən, uğrunda yaşam boyu mübarizəyə sövq edən, gün-güzəranımızı qarışıq rənglərlə əks etdirən həyat, nədən belə şirinsən, sirlisən, həm də ziddiyyətli?..

Bəşər övladında bu təzadlı ovqatı yaradan çiçəklər qədər zərif, kövrək olan, könül xoşluğu yaradan incə sənət növlərindən biri, həm də birincisi musiqidir, musiqi! Budur, insana bütün naqisliyi, sərtliyi və acıları unutduran, onu sısqa rişələrin get-gedə dərinə işləyən kökləri tək həyata bağlayan ən ali sevgi, qüdrət və qüvvə!..

Onu gələcəyə böyük ümidlərlə yaşadan da incəsənətə, musiqiyə lap erkən yaşlarından bəslədiyi intəhasız sevgisi olub. Xəyalən şirin arzularının qanadlarında mavi səmanın, göylərin ənginliklərində ruhunu ehtizaza gətirən musiqinin ecazında pərvaz edib. Bu sənətə də elə uşaqlıq çağlarından, daşların arasından sızaraq axan su təki qəlbə rahatlıq gətirən şirin zümzümələri ilə cığır açıb. O zaman dumduru baxışları, təbəssümü, xoş avazı ilə ətrafına özü boyda işıq saçan bu balaca oğlanın ağlına da gəlməzdi ki, nə vaxtsa incə bir sənətdə Tanrının lütfü olan istedadını özünün zəhməti, yaradıcı axtarışları ilə cilalayaraq püxtə bir sənətkar olacaqdı. Elə bir sənətkar ki, ürəyəyatan səs tempi, ahəngi, xoş avazı görkəmli sənətkarların diqqətini çəkəcək, onu sevəcək, gələcəyinə inanacaq, barəsində ciddi fikirlər səsləndiriləcək. Müqtədirlər sənət üçün doğulan gənci sıralarında görməkdən məmnun olacaqlar.

Müəllim valideynləri də zənlərində yanılmadı. Süleymanın güclü musiqi duyumu, mahnı ifaçılığına olan böyük həvəsi kamil bir sənətkar olacağına onlarda böyük ümidlər yaratdı. Musiqi sanki ruhuna hoparaq, əllərindən tutaraq onu uzaqlara apardı. Böyük sənətkarların səsinə aludə olan Süleymanın həyat yollarına bələdçilik edən taleyi elə bu səbəbdən də onu musiqiyə bağladı. O, sənətdə ilk addımlarını görkəmli bəstəkar Əfsər Cavanşirovun “Bənövşə uşaq xoru”ndan atmağa başladı. Musiqi dünyası ilə ilk tanışlıq onu səslisözlü aləmə elə bağladı ki, özünü bütün tamlığı ilə ancaq orada görə bildi. Onu eşidənlərin ümidlərini doğrultduğu əsas məqam isə məktəbli çağlarında Heydər Əliyev adına sarayda Mədəniyyət Nazirliyi tərəfindən keçirilən “İstedadlar axtarırıq” müsabiqəsinə qatılmasından başladı. Süleyman bu müsabiqənin qalibi oldu və özünəinamın ilk qığılcımları da buradan saçılmağa başladı. Və sənətin çətin yollarında bütün əziyyətlərə qatlaşaraq gəncliyini və sonrakı illərini özünü yetişdirməyə həsr etdi. Qızmar günəşin aləmi yandırıb-yaxdığı saatlarda, qarlı-şaxtalı günlərdə, güclü küləklərin adamları, ağacları az qala yerindən qoparıb belədən-beləyə çırpmağa cəhd etdiyi vaxtlarda hərbi hissələrdə vətən sevdalılarının, igid əsgərlərin qarşısında gözündən-könlündən saçılan nurun, məhəbbətin işığında mahnılarını sevərək ifa edirdi. S.Zeynalov ölkəmizdə və bir çox xarici ölkələrdə Azərbaycan mədəniyyətini, incəsənətini layiqincə təmsil edirdi. Bu zəhməti yeri gəldikcə Fəxri fərmanlar və Diplomla mükafatlandırılırdı.

Amma hələ bunlara qədər qarşıda sənətin sirlərinə yiyələnməyə, müqtədir sənətkarlardan alacağı ustad dərslərinə aparan yollar vardı. Səsini açmaq, cilalamaqdan ötrü gecə-gündüz çalışmalı, əziyyət çəkməli, özünü yetişdirməliydi. Musiqidə mükəmməl biliyə malik olmalıydı. Bu səbəbdən də Asəf Zeynallı adına Bakı Musiqi Kollecinin vokal şöbəsinə daxil olur. Burada müəllimi, adını həmişə minnətdarlıqla xatırladığı Pərixanım Behbudova olur. Bundan sonra o, 1971-76-cı illərdə Mirzağa Əliyev adına İncəsənət Universitetinin mədəni-maarif fakültəsində qiyabi yolla təhsil alır.

Hələ orta məktəbdə keçirilən təntənəli bayram günlərində, sonradan Musiqi Kollecində, Universitet illərində bütün tədbirlərdə çıxış edən Süleyman öz ifaları ilə artıq özünə tamaşaçı marağı və rəğbəti yarada bilir. Süleyman Zeynalov 1974-cü ildə 21 yaşında professional səhnəyə gəlir. O, 1978-ci ildən düz 20 il Azərbaycan Dövlət Qastrol Konsert Birliyinin solisti olub. Burada çalışdığı vaxtlarda Azərbaycanın bütün rayonlarında, cəbhə bölgələrində, dövlət tədbirlərində xüsusi konsert proqramı ilə, özü də Xalq artistləri Sara Qədimova, Şövkət Ələkbərova, Tükəzban İsmayılova, Əbülfət Əliyev, İslam Rzayev, Mirzə Babayev, Elmira Rəhimova, İlhamə Quliyeva... ilə bir arada etdiyi çıxışlar orta və yaşlı nəslin indi də hafizəsindən silinməyib. Bu müqtədir sənətkarlar səsini, səhnə mədəniyyətini, etikasını bəyəndiklərindən həmişə gənc müğənniyə dəstək olublar. Konsert Birliyində işlədiyi vaxtlarda Əməkdar incəsənət xadimi Gülarə xanım Əliyeva onu rəhbərlik etdiyi “Dan ulduzu” instrumental ansamblına, Nəriman Əzimov da Azərbaycan Televiziyasının Səid Rüstəmov adına Xalq çalğı alətləri orkestrinə dəvət ediblər. Vokalist bu ansambllardakı gözəl ifaları ilə də tamaşaçıların qəlbinə yol tapır. Onu da xatırlayırıq ki, Süleyman Zeynalov vaxtilə Qarabağ zonası üzrə rayonlarımızda keçirilən məhsul bayramlarında və Naxçıvana təşviqat qatarı ilə səfərlərdə minlərlə zəhmətkeşin qarşısında canlı ifaları ilə çıxışlar edib. Və həmişə də böyük qürur hissi və fəxarətlə deyib: “Mən fəxr edirəm ki, azərbaycanlıyam, bu xalqın oğluyam...”. Bir qədər sonra Süleyman müəllimin məlahətli, ecazkar səsi teatr tamaşalarından, filmlərdən də eşidilir. Burada da bayatı-mahnılar ifa edir. Gəncliyindən populyarlıq qazanan, oxuduğu lirik, bəstəkar və xalq mahnıları ilə ürəklərə yol tapan vokalist, Azərbaycan Respublikasının Əməkdar artisti Süleyman Zeynalov sənət taleyini hər zaman mükəmməl yaşamağa çalışıb.

Musiqiylə yaşayan, özünü bu sənətdə görən və inkişaf etdirən sənət adamının həyatı, yaradıcılığı ilə yaxından tanışlıq məndə müğənninin obrazı, xarakteri haqqında dolğun təsəvvür yaratdı. Onun tanışlıq üçün mənə təqdim etdiyi qovluqdakı sənədləri vərəqləyir, oxuyuram. Müxtəlif vaxtlarda haqqında yazılmış yaradıcılıq xasiyyətnamələri, həyatı, sənət taleyi ilə bağlı əlaqədar təşkilatlara edilən təklif-təqdimatlar, müraciətlər qəlbimi riqqətə gətirir. Sənətkarın dövlət qayğısına böyük ehtiyacı var. Fəxri ad, Prezident təqaüdü, mənzil... Axı iki övladı ilə darısqal mənzildə yaradıcılıqla məşğul olmaq, cüzi pensiya ilə ailə saxlamaq, mədəniyyətimizə xidmət etmək ağlasığan deyil! Sənət yolundan dönməyən, vətənini böyük məhəbbətlə sevən bir Azərbaycan vətəndaşı kimi rahat yaşamağa, yüksək adla təltif olunmağa layiq olduğunu hələ neçə illər qabaq korifey sənətkarlar da Mədəniyyət Nazirliyinə müraciətlərində təsdiq edirdilər. Problemlər isə həll olunmamış qalır. Ötən il millət vəkili, yazıçı-publisist Rafael Hüseynovun Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayevə ünvanladığı məktub da bu mənada diqqətəlayiqdir. Rafael müəllim yazır: “Respublikanın əməkdar artisti, estrada müğənnisi Süleyman Zeynalov Azərbaycan mədəniyyətinin inkişafında xidmətləri olan, bu gün də fəaliyyətini uğurla davam etdirən sənətkarlardandır. S.Zeynalov səhnə və efir fəaliyyətilə bağlı sənədlər toplusunu qəzet-jurnal materiallarını Milli Məclisə göndərərək xidmətləri ilə bağlı biliklərimizi daha da konkretləşdirir, həqiqətən, nə qədər dəyərli yol keçdiyi barədə aydın təsəvvür yarada bilir. Əməkdar artist Süleyman Zeynalov ona Prezident təqaüdü və fəxri ad verilməsi məsələsini növbəti dəfə qaldırmaqla yanaşı, həm də son dərəcə ağır mənzil şəraitində yaşamağa məcbur olduğunu bildirir, köməklik göstərilməsinə ümidini ifadə edir”.



İndi çoxları onun televiziya və radioda eşitdiyi ifalarını yaxşı xatırlayırlar. Və bu çoxluq da Süleyman Zeynalovun gəncliyindən xalqın bəyəndiyi, sevdiyi müğənnilərdən olduğuna əmindir. Musiqini dərk etməsi, səsindəki məlahət, şirinlik bəstəkarları hər zaman onunla işləməyə həvəsləndirib. Həm də hansı bəstəkarlar! Müqtədir sənətkarlar - Tofiq Quliyev, Şəfiqə Axundova, Oqtay Kazımi, Cahangir Cahangirov, Emin Sabitoğlu, Elza İbrahimova, Nəriman Əzimov, Hökumə Nəcəfova, Faiq Sücəddinov, Tamella Məmmədzadə, Tahir Əkbər... Və bu gün oxuduğu mahnıların bir çoxunu xatırlayanda, ifasını yada salanda, düşünürəm ki, Süleyman Zeynalovla işləmək bu bəstəkarlar üçün çox maraqlı və xoş olub. Əvvəla, Süleyman təbiətən saf, mülayim, açıqfikirli, səbirli, diqqətcil bir insan olduğundan bu müqtədir şəxsiyyətlərin xariqülədə yaradıcılıqlarını duyub, dərk edib. Onların tövsiyələrini böyük minnətdarlıqla qəbul edib, musiqilərindəki incəliyi, manevrləri dərhal və ustalıqla qavraya bilib. Başqa bir tərəfdən, gənc Süleymanın səsinin cazibədarlığı, tembri, oxu tərzi, ahəngi müğənni-bəstəkar işbirliyində bir rahatlıq, anlaşma yaradıb. Süleyman mahnılarının yaddaqalan, həmişə xatırlanan olmasından ötrü onların üzərində çox çalışıb, musiqini sözün canına hopdurmaq, harmoniya yaratmaqdan ötrü gecə-gündüz etdiyi məşqlərdən yorulmayıb. Nəticədə, musiqinin incə çalarlarını, rənglərini hiss etməyə, səsində canlandırmağa nail olub. Və həmin mahnıların vizit kartını yaradıb, ona öz möhürünü vurub. Elə buna görədir ki, “Azərbaycana gəlsin”, (S.Rüstəm, T.Quliyev), “Səninlə olsun” (O.Kazımi, C.Novruz), “Bu torpağa borcluyam” (B.Vahabzadə, Ş.Axundova), “Məhəbbət vadisi” (O.Kazımi, C.Novruz), “Xoş bəxtin olsun” (R.Heydər, O.Kazımi), “Ömrümüzün bəzəyi” (İ.Tapdıq, O.Kazımi), “Sevinc dolu ürək” (C.Novruz, Oqtay Kazımi) mahnılarını xatırlayanda, dodaqaltı zümzümə edəndə o zaman Süleyman Zeynalovun şirin, məlahətli ifası yada düşür.

Süleyman müəllim etiraf edir ki, həmişə böyük sənətkarlardan dəstək görüb, hələ özlərinin sağlığında mahnılarını ifa edəndə alqışlarını, xoş sözlərini eşidib, hər birinin rəğbətini qazanıb. Şövkət Ələkbərova, Gülağa Məmmədov onu sənətdə özlərinin davamçısı gördüklərini deyiblər. Doğrudan da, Süleyman müəllimin səs ahəngi, oxu manerası bizə adlarını çəkdiyimiz böyük sənətkarların ifa tərzini (təqlid etmədən, gedilmiş yola ayaq qoymadan!) xatırladır. Bu mahnılara gətirdiyi incə, zərif çalarlara gəlincə, onlar, əlbəttə ki, özünəməxsusluq kəsb edir.

